“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN



*Qəzet 1932-ci ildən çıxır* № 1-2 (6867-6868) 14 fevral 2023-cü il Cəbrayıl RİH-nin qəzeti




# Azərbaycan Türkiyənin dərdinə şərik çıxır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Dövlətimizin başçısı Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını və kədərləndirdiyini dedi.

Prezident İlham Əliyev zəlzələ zamanı həlak olanlarla bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana, onların ailələrinə və qardaş Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından başsağlığı çatdırdı, yaralananların tezliklə şəfa tapmasını dilədiyini bildirdi.

Azərbaycan Prezidenti qeyd etdi ki, bu, böyük fəlakətdir və ölkəmiz Türkiyənin bu dərdinə şərik çıxır.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır.

Rəcəb Tayyib Ərdoğan zəngə və başsağlığına görə dərin təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı dedi ki, onun tapşırığına əsasən, 420 nəfərdən ibarət xilasedici heyət artıq qardaş ölkəyə göndərilib və hadisə yerinə çatan kimi Türkiyədən olan həmkarları ilə birlikdə dərhal fəaliyyətə başlayacaq.

Prezident İlham Əliyev vurğuladı ki, ehtiyac duyulan ləvazimatlarla bağlı yardım da yaxın vaxtlarda qardaş ölkəyə yola salınacaq.

Türkiyə Prezidenti bu qardaş dəstəyinə görə dövlətimizin başçısına və Azərbaycan xalqına minnətdarlığını ifadə etdi.

**Prezidentin Mətbuat Xidməti**

## *Folklorşünas alim:* Birinci vitse-prezidentin paylaşımı xalqımız tərəfindən rəğbətlə qarşılandı



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi instaqram səhifəsində Türkiyədəki zəlzələdən zərər çəkənlərə humanitar yardımla bağlı paylaşımı xalqımız tərəfindən rəğbətlə qarşılandı. Azərbaycan xalqının milli birlik və həmrəylik nümayiş etdirməsinə, insanlarımızın Türkiyə xalqının, bütün türk dünyasının yaşadığı bu faciəyə olan yanğısına, dəstəyinə, hazırda təbii fəlakət zonasında çalışan xilasedicilərimizin, tibb işçilərimizin, diplomatlarımızın, media nümayəndələrimizin əməyinə, yardım kampaniyasında iştirak edən hər bir vətəndaşımızın, yerli şirkət və təşkilatlarımızın, könüllülərin və s. bu mövqeyinə və nəcib əməlinə Mehriban Əliyevanın verdiyi yüksək qiyməti ədalətin və yüksək humanizmin təntənəsi hesab etmək olar.

Bunu AZƏRTAC-a açıqlamasında AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Şakir Albalıyev söyləyib. O qeyd edib ki, diqqət və qayğısına görə hamının hörmətini qazanan Mehriban xanım Əliyevanın ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı rolu, mühüm xidmətləri artıq ölkə hüdudlarını da aşır. Türkiyədə baş verən zəlzələdən zərərçəkənlərə onun rəhbərliyi və göstərişi ilə dərhal yardım kampaniyasının təşkili bunun əyani sübutudur.

”İnamla demək olar ki, Azərbaycan qadınına xas xoşməramlı ənənələr bu gün də davam edir. Ölkənin birinci xanımı bu paylaşımında ləyaqətli, yüksək humanizmi və nəcibliyi ilə Azərbaycan qadınının adını daha da yüksəklərə qaldırdı”, - deyə folklorşünas alim bildirib.

**AZƏRTAC**

## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

**Hörmətli cənab Prezident,**
**Əziz Qardaşım,**

Kahramanmaraşda baş vermiş və qardaş Türkiyənin bir çox yerlərində hiss edilmiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu ağır məqamda hər cür yardım göstərməyə hazır olduğumuzu bildirir, faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**Allah rəhmət eləsin!**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 6 fevral 2023-cü il*

# Qardaşlığın möhtəşəm nümunəsi



**Arif FƏRZƏLİYEV,**
*YAP Cəbrayıl*
*rayon təşkilatının sədri*

**Türkiyə və Azərbaycan arasında tarix boyu sarsılmaz dostluq və qardaşlıq münasibətləri mövcud olub. Xalqlarımız istər xoş günlərdə, istərsə də çətin zamanlarda mənəvi birlik nümayiş etdirib, bir-birinin sevincini və kədərini bölüşüblər. 2020-ci ildə Azərbaycanın öz torpaqlarının azadlığı uğrunda ədalətli Vətən müharibəsinə başladığı ilk saatlarda Türkiyə öz qəti mövqeyini bildirdi və Azərbaycanın yanında olduğunu bəyan etdi. 44 gün sonra Türkiyə və Azərbaycan ölkəmizin tarixi Qələbəsini birgə qeyd etdilər. Xalqlarımız sevinclərini paylaşdılar. Bu gün isə Azərbaycan Türkiyəli qardaşlarının kədərini paylaşır.**

Fevralın 6-da Türkiyədə baş vermiş dəhşətli zəlzələ qardaş ölkədə olduğu kimi, Azərbaycanda da xalqın sonsuz kədər və sarsıntısına səbəb oldu. Azərbaycan Türkiyəli bacı və qardaşlarının üzləşdiyi fəlakəti özünün faciəsi kimi qəbul etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı başsağlığı məktubunda xalqımızın keçirdiyi hissləri son dərəcə dəqiqliklə ifadə edərək yazmışdır: “Kahramanmaraşda baş vermiş və qardaş Türkiyənin bir çox yerlərində hiss edilmiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi. Bu ağır məqamda hər cür yardım göstərməyə hazır olduğumuzu bildiririk”.

Artıq faciənin ilk günündə FHN-in 420 nəfərdən ibarət xilasedici heyəti qardaş ölkəyə göndərilərək Türkiyədən olan həmkarları ilə birlikdə dərhal fəaliyyətə başlamışlar. Zəlzələ baş verdikdən sonra keçən iki gün ərzində Prezident İlham Əliyevin göstərişi ilə qardaş ölkəyə yardım aparan 7 təyyarə və 1 avtomobil karvanı göndərilib. Bu yolla Türkiyəyə 41 nəfəri tibbi heyət olmaqla FHN-in 725 nəfərlik şəxsi heyəti, xilasetmə avadanlıqları, mobil səhra hospitalı, 4 səhra mətbəxi, xilasetmə işlərində istifadə olunan ləvazimatlar, generatorlar, nasos stansiyaları, avtomobillər, həmçinin modul səhra hospitalları, tibbi avadanlıq, dərman preparatları, təxirəsalınmaz yardım vasitələri, çadırlar, yataq dəstləri, habelə zərər çəkmiş əhali üçün humanitar yardım çatdırılıb.

Birmənalı olaraq qeyd etmək lazımdır ki, Azərbaycan dövlətinin birbaşa nəzarəti altında həyata keçirilən Türkiyəyə yardım kampaniyasının ən fəal iştitakçılarından biri sözsüz ki, Heydər Əliyev Fondudur. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişinə əsasən Fond tərəfindən qardaş ölkəyə göndərilən humanitar yardıma dərman preparatları, oksigen maskaları, filtrli sistemlər, sarğı materialları, onurğa taxtaları, ilkin yardım boyunluqları, xərək, digər tibbi ləvazimat və avadanlıqlar, eləcə də isti geyimlər daxil olub. Heç şübhəsiz, Heydər Əliyev Fondunun səyləri müstəsna əhəmiyyət kəsb edir. Zəlzələ qurbanlarına dəstək məqsədilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişinə əsasən faciədən zərər çəkmiş şəxslər üçün Fond tərəfindən ilkin mərhələdə 36 ton humanitar yardım göndərilib. Bundan başqa, yenə də Mehriban xanım Əliyevanın göstərişi əsasında və Türkiyənin ölkəmizdəki səfirliyinin vətəndaşlarımıza etdiyi çağırışa cavab olaraq Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi Bakı şəhərində yardım kampanyasına start vermişdir. Eyni zamanda da paytaxt Bakı ilə yanaşı ölkənin bütün regionlarının sakinləri də qardaş Türkiyəyə dəstək vermək üçün yardım aksiyasına qoşulublar. Bu gün bütün Azərbaycan xalqı Türkiyədə baş vermiş güclü zəlzələdən zərər çəkən qardaşlarına kömək üçün sözün əsil mənasında səfərbər olub. Bu məqsədlə yardım toplama məntəqələrinə axın edən izdiham həqiqi qardaşlığın ən möhtəşəm nümunəsidir.





# Rayonda aparılacaq bərpa-quruculuq işləri müzakirə olundu

**Yanvarın 12-də Cəbrayıl rayonİcra Hakimiyyətinin Biləsuvar rayonu ərazisindəki binasında Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Rasim oğlu Hacıyevlə görüş keçirildi. Cəbrayıl rayonunun ictimai fəalları - ağsaqqalların və ziyalıların iştirakı ilə keçirilən görüşü Cəbrayıl RİH-nin başçısı Kamal Həsənov açdı, qonaqları və iştirakçıları salamladıqdan sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.**

Qeyd edim ki, görüşə Vahid Hacıyevlə birgə Şərqi Zəngəzur iqtisadi rayonunda 1 saylı bərpa, tikinti və idarəetmə xidməti Publik Hüquqi şəxsin icraçı direktoru Növrəs Cəfərov, Elşad Allahyarov və başqaları da gəlmişdilər.

Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov diqqəti 2020-ci ildəki 44 günlük müharibədə qazandığımız parlaq qələbəyə yönəldib, qeyd etdi ki, bu qələbəni biz gözləyirdik. Çünki dövlətimizin başçısı uğurlu daxili və xarici siyasəti ilə çoxdandır ki, bizi bu tarixi qələbəyə doğru aparırdı. Bizim əhalimiz 30 ilədək ağır vəziyyətlərdə məcburi köçkünlük həyatı yaşadı. Azərbaycan xalqı, dövləti üçün siyasi-mənəvi baxımdan çox mühüm əhəmiyyət daşıyan tarixi Qələbəmizə nail olduq. Artıq tarixi dədəbaba torpaqlarımıza böyük Qayıdış üçün səfərbər olunmalıyıq. Bu gün bu görüşün keçirilməsindən məqsəd ondan ibarətdir ki, biz rayonumuzun tikinti-bərpa işlərinin aparılması zamanı nələri arzu edərdiniz, nələri təklif edərdiniz kimi məsələləri müzakirə edək. Rayonumuzun işıqlı gələcəyi üçün hər birimizin fəaliyyəti birbirilə vəhdət təşkil etməlidir. Dövlətimizin başçısı da xarabaya çevrilmişyurdlarımızın abadlaşdırılması istiqamətində sizin də təklif və arzularınız, fəaliyyətiniz olmaqla hər şeyin daha yaxşı olmasını, yaşayış üçün, xoşbəxt gələcək üçün hər bir şəraitin yaradılmasını istəyir. Bildiyimiz kimi, tarixin müxtəlif dönəmlərində Cəbrayıl qəza mərkəzi kimi də fəaliyyət göstərib, iqtisadi-siyasi baxımdan mərkəz olub. Eyni zamanda Cəbrayıl əhalisinin özünəməxsus zəngin keçmişi, adət-ənənələri olub; buna görə də Cəbrayıl rayonunun yenidən qurulması, tikilməsi istiqamətində sizin arzu və təkliflərinizin dinlənilməsi və nəzərə alınması çox mühüm əhəmiyyət kəsb edir.

Bu məzmunda çıxışını tamamlayan Kamal müəllim üzünü tədbir iştirakçılarına tutub sərbəst və ətraflı müzakirə aparmaq üçün arzu və təkliflərlə çıxış etmələrini bildirdi.

Əvvəlcə Cəbrayılın gələcəyi ilə bağlı nəzərdə tutulan planlarla bağlı məlumatları çatdırmaq məqsədilə prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev danışdı. O, bildirdi ki, artıq Qarabağ və Şərqi Zəngəzur zonasının bərpa-quruculuq işləri başlayıb. Dövlət Planına əsasən 2022-2026-cı illərdə kəndlər, qəsəbələr salınacaq. Bu istiqamətdə əhalinin təklif və maraqları da nəzərə alınacaq. Bunun üçün əsasən 5 əsas istiqamətdə işlərin aparılmasına başlanılıb. Birincisi, kənd təsərrüfatı sahəsi üzrədir. 120 000 hektar kəndtəsərrüfatı təyinatlı torpaq var ki, bu ərazilərdə əhalinin sosial-maddi rifahının yaxşılaşdırılması məqsədilə əkinbiçin işlərinin aparılması nəzərdə tutulub. İkincisi, mədən-sənaye sahələrinin inkişaf etdirilməsi nəzərdə tutulub. Ərazidəki yerli xammal materiallarının istehsalata cəlb olunması məqsədi daşıyır. Qum yatağı, daş karxanası və s. Üçüncü istiqamət logistika-nəqliyyat sahəsi ilə bağlıdır. Dəmiryolunun çəkilməsi 85% Cəbrayıl istiqamətində yekunlaşıb. Logistika-nəqliyyat sahəsinin inkişafı ilə məşğulluğun artırılması, investisiyanın cəlb olunması asan olacaq. Zəngəzur dəhlizi Horadiz - Cəbrayıl istiqamətindən də gəlib keçir. Dəmir yolu üstündə Araz Vadisi İqtisadi zonası - sənaye zonasına artıq bəzi şirkətlər fəaliyyət göstərmək barədə müraciət ediblər.Burada həm kənd təsərrüfatı, həm qida məhsulları istehsalı ilə məşğul olacaqlar. 4-cü istiqamət turizm sahəsini əhatə edir. Misal üçün, Cəbrayılda Xudafərin körpüləri turistlərin marağına səbəb olacaq qədim tarixi abidədir. 5-ci istiqamət yaşıl enerjidir. Yaşıl enerji istiqamətində də böyük potensial var. BiPi şirkəti ilə əlaqə qurulacaq. Soltanlıda 240 meqabaytlıq günəş enerjisindən ibarət stansiya qurulacaq, Azərenerji tərəfindən paylanacaq.

Vahid Hacıyev onu da əlavə etdi ki, digər istiqamətlər də var və bu 5 istiqamət üzrə rayonun inkişafına böyük töhfələr veriləcək. Dövlət planına görə ilk növbədə Cəbrayılda 1 şəhər, 1 qəsəbə, 10 kəndin inşası nəzərdə tutulub: Cəbrayıl şəhəri, Xudafərin qəsəbəsi, Soltanlı, Şükürbəyli, Horovlu, Sarıcallı, Mehdili, Yuxarı Mərcanlı, Böyük Mərcanlı, Araz Maşanlı... Cocuq Mərcanlıda artıq yaşayış var. 12 000 nəfərədək əhalinin ilk növbədə Cəbrayıla köçürülməsi düşünülüb. İşə qəbul komissiyası da əhalinin iş yerləri ilə həmin olunması məqsədilə bu sahədə fəaliyyət göstərir.

Vahid müəllimin çıxışından sonra rayon ziyalıları və ictimaiyyət nümayəndələri arzu və təkliflərlə çıxışa başladılar. Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Məhərrəmov Şuşaya, Ağdama olduğu kimi, Cəbrayıla da turlar təşkil edilməsi təklifilə çıxış edib, bildirdi ki, Cəbrayılın hər bir kəndinin tarixi var, tarixi və görməli yerləri, abidələri və s. var.İnsanların gedib öz doğmalarının məzarlarını ziyarət etmələri üçün marşrutların açılması vacibdir.

Şahin Şirinov çıxışında Cəbrayılda 118 kəhrizin olmasından, həmin kəhrizlərin bərpası yolu ilə aqrar sektorun inkişafına, əkinçiliyin, heyvandarlığın inkişafına mühüm şəraitin yaradılması imkanlarından söz açdı.

Mərkəz Paşayev rayonda kənd təsərrüfatı və xammal ehtiyatları barəsində ətraflı danışdı. Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün Gəyən və Teştək düzlərinə Həkəri çayının suyunun çıxarılmasının vacibliyindən söz açdı. Habelə kəndlərin su ehtiyatı olan ərazilərdə salınmasını təklif etdi.

Elman Piriyev Cəbrayılın Çələbilər, Daşkəsən, Süleymanlı, Məzrə, Papı kəndlərində vaxtilə məscidlərin olduğunu diqqətə çatdırıb, rayon mərkəzində və eləcə də yeni salınacaq kəndlərimizdə məscidlərin də inşa edilməsinin vacibliyini qeyd etdiş

Horovlu kəndindən olan ehtiyatda olan polis polkovniki Elbrus İsmayılov rayon ərazisində orta və ali ixtisas təhsili verən elm və təhsil ocaqlarının açılması təklifi ilə çıxış etdi.

“Kredo” qəzetinin baş redaktoru, şair-publisist Əlirza Xələfli: ”Bizim bu tədbir tarixi xarakter daşıyır. Bu, Cəbrayılın bünövrəsinin mənəvi qoyuluşudur. Biz yeniləşən, yenidən qurulan Azərbaycanımızın şahidləriyik. Xudafərin qəsəbəsinin bərpa edilməsi həm də tarixi abidələrimizə olan sevgidir - milli dəyərdir. Hansı rayon öz babasının adı ilə tanınır? Eramızın III-VII əsrlərində yaşamış Cəbrayıl Atanın adından söhbət gedir. Alban knyazı müdrik Cəbrayıl Atadan məsləhət alırmış. Cəbrayıl Atanın məqbərəsi bərpa və təmir edilməli və turistlərin üzünə açılmalıdır.

Ziyarət dağının zirvəsində Alban abidəsi var. Cəbrayıl ərazisində eramızdan əvvəl II-III minilliklərlə səsləşən Ağoğlan abidəsi var və üstündə yazılı daş var. Hadrutun əvvəlki adı Ağoğlan olu. 1983-cü ildə Aşıq Qurbaninin məzarının bərpası haqda qərar qəbul edilmişdir. Azərbaycanda Qobustanda, Qazaxda Damcılı mağarası, Lerikdə Buzeyir mağarası, Azıx mağarası və Dağtumas ərazisində Divlər sarayı qədim insan məskənləridir. Divlər sarayı tədqiq olunmalı və turistlərin ora gedişi təşkil olunmalıdır. Kəhrizlər bərpa olunmalı, bulaqların üstündə sanatoriya tikilməlidir. Kiçik Qafqaz dağları boyunca uzanan sıra dağlardakı suların hamısı müalicəvi əhəmiyyətli, mineral sulardır. ”Cənnət Qarabağ” ifadəsinin bir sirri də Qarabağdakı suların müalicəviliyi ilə əlaqəlidir. Böyük Qafqazdan fərqli olaraq Kiçik Qafqaz sıra dağları müalicəvi mineral sularla zəngindir. Çələbilər kəndindəki mədrəsə-məsciddə M.V.Vidadi dərs deyib. Niyə ora turizm üçün maraqlı olmasın. Bir də Araz boyunda yerləşən kəndlər bir qədər kənarda tikilməlidir ki, bataqlıq - sulu ərazidə yaşayış gələcəkdə probleme çevrilə bilər. Bir də ki, biz yazıçılar, şairlər üçün ayrıca marşrutlar təşkil olunmalı, erməni barbarlığı nəticəsində xarabalığa çevrilmiş acı həyat mənzərəsini gözlərimizlə müşahidə etməli və yaradıcılığımızda bunu dolğunluğu ilə əks etdirməliyik ki, gələcək nəsillər də bizim əsərlərimiz vasitəsilə bu günkü, dünənki keçmişimizdən xəbər tuta bilsinlər.

Yusif İsmayılov bir sıra təkliflər səsləndirib, qeyd etdi ki, Cəbrayıl şəhərinin mərkəzi selav ağzında idi. Gələcəkdə sel-su təhlükəsindən uzaq olsun deyə bir qədər kənarda yeri dəyişdirilməklə tikilsin. 11 mindən çox əhalisi olan Böyük Mərcanlı kəndinin qəsəbə tipli olmasını və orada bir çox obyektlərin açılmasını arzuladı.

Fətəliyev Əli Yunis oğlu salınan kəndlər üçün ayrıca qəbiristanlıq sahələrinin də nəzərdə tutulmasını təklif etdi, həmçinin kəndlərə marşrut turların açılmasını arzuladı.

Mən - Şakir Albalıyev çıxışımda Cəbrayıl rayonunun qədim tarixi olan kəndlərindən sayılan Pirəsəd kəndinin və kəndlə eyni adı daşıyan Pirəsəd adlı ziyarətgahların 1937-ci il repressiyasına məruz qalmasından söhbət açdım. Bildirdim ki, bugünədək nəinki kənd yer üzündən silinmiş,hətta kəndin adı rayonun yaşayış kəndlərinin statistikasından çıxarılmış və kəndin adı unutdurulmuşdur. Pirəsəd adlı kənd də, Pirəsəd piri adlı ziyarətgahlar da yaddaşlardan silinmək təhlükəsindədir. Pirəsəd kəndinin yaşayış yeri kimi bərpa edilməsi və Pirəsəd Pirinin isə tarixi ziyarətgah kimi dövlət tərəfindən ziyarətgah-abidələr kimi mühafizə olunması haqda təkliflərimi səsləndirdim.

Məktəb direktoru Şəlalə Qasımlı rayon mərkəzində Böyük Vətən Müharibəsi iştirakçılarının, habelə Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovun xatirəsinə abidə-kompleksinin, Qartal abidəsinin ucaldılması və s. təkliflərlə çıxış etdi.

Əsəd Əsədov su altında qalan Qumlaq kəndinin qəbiristanlığındakı qəbirlərin və o cümlədən orada dəfn olunmuş 2 şəhidin qəbirinin hara köçürülməsi ilə bağlı suala aydınlıq gətirilməsini, Nəriman Əsədov Şükürbəyli kəndinin harada tikilməsilə bağlı narahatlığını dilə gətirdi. Əyyub Quliyev isə salınacaq kəndlərin yerinin və s. kimi məsələlərin əhali ilə, İcra Hakimiyyəti ilə hökmən əvvəlcədən razılaşdırılmasının vacibliyini diqqətə çəkdi. Kənd adlarının silinməməsi, ayrı-ayrı kəndlərin əhalisinin məskunlaşdırılması zamanı onların toplu halında - kompakt şəklində yaşamalarını və s. diqqətdə saxlamağı xahiş etdi.

Zaur Vəliyev bildirdi ki, rayon İcra Hakimiyyəti rayonun Təhsil sektoru ilə birgə vaxtaşırı olaraq məktəblərimizdə tarixi abidələrimizlə bağlı maarifləndirici istiqamətdə tədbirlər keçirsələr də, yaxşı olardı ki, bərpadan əvvəl yaşlı nəslin bələdçiliyi ilə rayonumuza və kəndlərimizə ekskursiyalar təşkil olunsun. Erməni vandalizminin və yenidən quruculuq işlərinin canlı şahidi olsunlar. Onlar bu gördüklərini, söz yox ki, telefonun yaddaşında saxlayacaqlar və elələri də olacaqki, ali məktəblərə daxil olub, xarici ölkələrdə təhsil alacaqlar. O zaman Qarabağ həqiqətlərini canlı iştirakçılar kimi oxuduqları ölkəyə yaysınlar.

Məktəb direktoru Arifə Əhmədova çıxışında rayon mərkəzində Gənclər Mərkəzinin, Heydər Əliyev mərkəzinin, Şahmat məktəbinin, habelə ictimai binaların da olmasını təklif etdi.

Aşağı Maralyan kəndindən olan publisist Ramilə Qurbanlı Aşıq Pərinin məzarının və məzarüstü abidəsinin götürülməsi, habelə kəndlərinin bərpa olunması və s. barədə təkliflərlə çıxış etdi.

Cəbrayıl rayonunun və kəndlərinin yenidən qurulması ilə bağlı keçirilən görüş maraqlı arzu və təkliflərlə, səmimi müzakirələr şəraitində keçdi.

**Şakir ALBALIYEV**

# Rayonda fəaliyyət göstərən sahibkarlarla görüş

**Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov sahibkarlarla görüşüb. 9 fevral 2023-cü il tarixdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin inzibati binasında keçirilən görüşdə RİH başçısının müavinləri, idarə və müəssisələrin rəhbərləri, İctimai Şuranın üzvləri və sahibkarlar iştirak ediblər.**

Görüş zamanı gündəlikdə duran iki məsələ müzakirə edilmişdir. Birinci məsələ Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 7.1.1-ci yarımbəndinin (mikro, kiçik və orta sahibkarlıq subyektlərinin bilik və bacarıqlarının artırılması, həmçinin onların beynəlxalq təcrübəyə yiyələnməsi məqsədi ilə ixtisasartırmanın təşkili) və ikinci məsələ həmin Tədbirlər Planının 7.1.22-ci yarımbəndinin (“ABAD” mərkəzləri şəbəkəsinin genişləndirilməsinin davam etdirilməsi və iri şirkətlər tərəfindən ailə təsərrüfatlarının dəstəklənməsinin təşviqi) icrası ilə bağlı olmuşdur.



Görüşü giriş sözü ilə açan RİH başçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə sahibkarlığın inkişafı üçün həyata keçirilən layihələrdən danışıb, sahibkarların fəaliyyətinə daim diqqət və qayğı göstərilməsinin vacibliyini vurğulayıb. Görüş zamanı sahibkarların bilik və bacarıqlarının artırılması, beynəlxalq təcrübəyə yiyələnməsi məqsədi ilə təlimlərə cəlb edilməsinin əhəmiyyətindən bəhs edib. Sahibkarlara alış-veriş zamanı nağdsız hesablaşmaların təşviq edilməsi, obyektlərdə satış üçün vitrinə qoyulmuş hər bir malın üstündə qiymətinin olması, işçilərinin gələcəkdə sosial müdafiə və pensiya hüququnun yaradılması üçün onlarla əmək müqaviləsi bağlanması, Silahlı Qüvvələrə Yardım Fondu üçün ianənin edilməsinin və fövqəladə hadisələrdən sığortalanmaq üçün öz daşınmaz əmlaklarını sığortalamasının əhəmiyyəti barədə müvafiq tapşırıq və tövsiyələr verilib.

İcra başçısı görüşdə “ABAD” mərkəzləri şəbəkəsinin genişləndirilməsinin davam etdirilməsi və iri şirkətlər tərəfindən ailə təsərrüfatlarının dəstəklənməsinin təşviqindən də söz açıb. Rayon rəhbəri çıxışında bildirib ki, “ABAD” - Ailə Biznesinə Asan Dəstək publik hüquqi şəxsi Respublika Prezidenti İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) tabeliyində yaradılmışdır. Qurumun yaradılmasında məqsədin Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək olduğunu vurğulayıb. “ABAD” mərkəzlərində dekorativ-tətbiqi xalq sənətkarlığı və qida məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək layihələrinin həyata keçirildiyini qeyd edib. Görüşdə həmçinin bildirilib ki, “ABAD” mərkəzləri ailə təsərrüfatlarına biznes-planlaşdırma, marketinq, təlimlər, brendinq və dizayn, maliyyə-mühasibat, hüquqi yardım, ən əsası istehsal olunmuş məhsulların ”bir pəncərə” prinsipi üzrə sertifikatlaşdırılmasını, logistika işinin və satışların təşkilini həyata keçirir. “ABAD” mərkəzlərinin sahibkarlara öz məhsullarını satmaları üçün geniş imkanlar açdığını qeyd edən rayon rəhbəri onları dövlət tərəfindən yaradılan bu imkandan səmərəli istifadə etməyə çağırıb.

Sahibkarlar onlara göstərilən dövlət qayğısından razılıqlarını bildirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə etmişlər.

# 20 Yanvar Şəhidləri anıldı







**Yanvarın 19-da “İstiqlal” muzeyində yerləşən Cəbrayıl rayon tarix-diyarşünaslıq muzeyində 20 yanvar şəhidlərinin və Cəbrayıl rayonunun İsaxlı kəndindən olan 20 yanvar şəhidi Səxavət Balay oğlu Quliyevin xatirəsinə həsr olunmuş tədbir keçirildi.**

Dövlət Himnimizin səsləndirilməsi və şəhidlərimizin xatirəsinin anılması ilə başlanan tədbiri muzeyin direktoru Aytən Fətullayeva açdı. Xalq azadlıq hərəkatında mühüm hadisə kimi tarixdə qalan 20 Yanvar qırğını və həmin qətliamda şəhid olmuş Səxavət Quliyev haqqında əhatəli məlumat verdi. Daha sonra videoçarx nümayiş olundu.

Tədbirə dəvət olunmuş Səxavət Quliyevin oğlu Şahin müəllim çıxışında həmin müdhiş gecəni xatirəsinin yaddaşından nəql elədi və qeyd etdi ki, 20 yanvarda şəhid olanların hamısı qanlı ordunun üzərinə qorxmadan getdiklərindən sinələrindən yaralanıblar. Yəni o şəhidlərin heç biri arxadan vurulmayıblar. Bu da xalqımızın övladlarının qorxmazlığından xəbər verir.

Rayon İcra Hakimiyyətinin əməkdaşlarından Əbil Vəliyev və Rasim Həsrətov, filologiya üzrə fəlsəfə doktoru Tariyel Abbaslı, mən - Şakir Albalıyev və başqaları çıxışlar edərək 20 yanvar faciəsindən 33 il - yeni bir qərinə vaxt keçməsindən danışdılar, qərinələr, əsrlər keçsə də, şəhidlərimizin xatirəsinin xalqımız tərəfindən daim anılacağını qeyd etdilər.

Məktəblilərdən Sona və Zəhra Abbasovalar, Fidan Xudiyeva və başqaları vətənpərvərlik ruhlu şeirlər səsləndirdilər.

**Şakir ƏLİFOĞLU**

# Cəbrayılda hərbçilər üçün yaşayış binaları istifadəyə verildi





Cəbrayıl rayonu ərazisində Dövlət Sərhəd Xidmətinin hərbi hissəsində zabit-gizirlər üçün yaşayış binaları xidməti istifadəyə verilib.

Bu barədə Publika.az-a DSX-nin Mətbuat Mərkəzindən bildirilib.

Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə əvvəlcə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarını fəda etmiş şəhidlərimizin, eləcə də Türkiyədə baş verən zəlzələ nəticəsində həyatını itirən bacı və qardaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev işğaldan azad olunmuş ərazilərimizdə hərbi qulluqçular və onların ailə üzvləri üçün nəzərdə tutulmuş növbəti yaşayış binalarının təntənəli açılışı münasibətilə şəxsi heyəti təbrik edib.

Çıxışda ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasından və dövlət sərhədlərimizin işğaldan azad edilməsindən sonra Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına uyğun olaraq bu ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması, hərbi qulluqçuların xidməti şəraitinin və sosial təminatının yaxşılaşdırılması üzrə ardıcıl tədbirlərin həyata keçirilməsi qeyd olunmuş, görülən işlər çərçivəsində yeni hərbi hissələrin xidməti-döyüş fəaliyyətinə başlamasının dövlət sərhədinin mühafizəsi məsələlərinə ali diqqətin növbəti təzahürü olması bildirilib.

Vətən Müharibəsində döyüş tapşırıqlarını uğurla icra edərək şücaət göstərən, bu gün də düşmən işğalından azad olunmuş müqəddəs sərhədlərimizin toxunulmazlığını təmin edən Azərbaycan sərhədçilərinin ölkəmizin ərazi hüdudlarının mühafizəsi vəzifəsini hər zaman layiqincə yerinə yetirəcəkləri vurğulanıb.

Açılış mərasimindən sonra xidməti istifadəyə verilmiş yaşayış binalarında yaradılmış şəraitlə tanış olunub və xidməti mənzillərə baxış keçirilib.

# *Nərimanov rayonundakı qərargahda növbəti səyyar görüş-qəbul*



**Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov növbəti səyyar görüş-qəbulu 10 fevral 2023-cü il tarixdə Bakı şəhəri, Nərimanov rayonunda yerləşən Cəbrayıl rayon İcra Hakimiyyətinin qərargahında keçirib. Qəbulda Rayon İcra Hakimiyyəti başçısı Aparatının məsul əməkdaşları və ərazidə müvəqqəti məskunlaşan rayon sakinləri iştirak ediblər.**

Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov keçirilən səyyar görüşlərin ölkə rəhbərinin tapşırıq və tövsiyələri əsasında respublikamızda aparılan sosial-iqtisadi islahatlar, əhalinin rifah halının yüksəlməsi istiqamətində görülən işlərin tərkib hissəsi olduğunu qeyd edib. Dövlət və vətəndaş münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini, məhz bu uğurlu siyasətin ölkəmizin bütün istiqamətlər üzrə mühüm nailiyyətlər əldə etməsinə şərait yaratdığını vurğulayıb.

Səyyar qəbul zamanı bir qrup rayon sakinini dinləyən İcra başçısı mövcud problemlərin həlli ilə bağlı aidiyyəti məsul şəxslərə müvafiq tapşırıq və tövsiyələrini verib.

# 11 saylı qəsəbədə səyyar görüş-qəbul



**Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov fevralın 7-də rayon İcra Hakimiyyəti aparatının məsul əməkdaşları, xidməti idarələrin rəhbərləri və rayon sakinlərinin iştirakı ilə 11 saylı Cəbrayıl qəsəbəsində növbəti səyyar görüş-qəbul keçirib.**

Rayon rəhbəri Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində respublikamızda, eləcə də bölgələrdə aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial rifahının yaxşılaşdırılması üçün həyata keçirilən geniş miqyaslı layihələrdən söhbət açıb.

İcra başçısı qəbula gələn vətəndaşları dinləyərək onları narahat edən məsələlərin həlli istiqamətində müvafiq tapşırıqlar verib. Qəbulda qaldırılan məsələlərdən bir neçəsi dərhal yerində həll olunub, digər məsələlər barəsində müraciət edən vətəndaşlara qanunamüvafiq izahat verilib.

Sakinlər çıxışlarında respublikada və rayonumuzda aparılan quruculuq işlərinə görə, həmçinin əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində keçirilən çoxsaylı tədbirlərə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə hədsiz minnətdarlıqlarını ifadə ediblər.

# ULUS VƏ ULULARA EHTİRAM İŞIĞINDA

**"Balyand" və "balyatdı"lar" ("Sabah", 2021) adlı yaddaş kitabı əvvəllər Qarabağ xanlığı Xırdapara Dizaq mahalının, sonradan Çar Rusiyası dövründə Şuşa, ardınca Cəbrayıl qəzalarının, 1929-cu ildən isə Cəbrayıl rayonunun tərkibində olan Balyand kəndi barədə tarixi-entoqrafik, toponimik və s. ilə bağlı məlumatları özündə əks etdirən ensiklopedik mənbədir.**

Kitabın rəyçiləri professorlar Qəzənfər Kazımov və Şirindil Alışanlı, məsləhətçiləri mərhum Ərşad Mehdiyev, Hüseyn Hüseynov, Əlif Mehrəliyev, Oktay Əhmədov, elmi redaktoru tarix elmləri namizədi, dosent Səttar Allahverdiyev, nəşrin ümumi redaktoru Qərib Qarannı, texniki redaktoru fizika-riyaziyyat elmləri namizədi, dosent Eynulla Allahverdiyev, son oxunun məsul icraçısı Oktay Əhmədov, ümumi texniki redaktoru Möhübbət Orucovdur.

Minnətdarlıq hissi ilə qeyd edim ki, belə bir əhəmiyyətli kitabın çapdan çıxdığını mənə Balyand kəndinin yetirməsi olan dəyərli dostum Anar Ləliş oğlu Cəbrayıllı xəbər verdi.

Dəyərli ziyalı Qərib Əli Rəhim oğlu Qarannının kitaba yazdığı geniş ön sözdən də bir daha aydın olur ki, bu ensiklopedik nəşr gərgin və uzunmüddətli zəhmətin bəhrəsi olaraq araya-ərsəyə gəlib. Doğrudan da, kitabı oxuduqca çox ciddi və sanballı bir əsərin fərqində olursan. Balyand kəndinin ümumi tarixindən, etnoqrafiyasından tutmuş, Balyand camaatının (balyandlıların) yeddi arxadönənə qədərki şəcərə ağacı və s. barədə məlumatlar burada özünün dolğun, müfəssəl əksini tapıb. Amma, açığı deyim ki, bu qədər zəhmət (zehni-əqli və fiziki-maddi baxımdan) bahasında başa gələn bu kitabın adında orfoqrafik xətaya yol verilməsi məni açmadı. Bu, dırnaqda verilən "balyatdı"lar ifadəsidir. Düzdür, dırnaq işarəsi bu yanlışlığın qəsdən edilməsinə işarə olmaqla bir qədər səhvi sığortalaya bilər, ancaq tam sığortalaya bilməz. Düzdür, dialektoloji materialları toplayıb tədqiqat aparankən, yaxud folklor mətnlərini informatorların danışığından qələmə alarkən, toplayarkən, yerli ləhcə, danışıq tərzini, tələffüz xüsusiyyətlərini qoruyub saxlamaq vacib şərtdir. Elə bu kitabın içində də bu səpkidə yerlərə rast gəlinir ki, bunlar məqbul haldır. Ancaq oxucunun ilk rastlaşdığı və gözünün qarşısına gətirdiyi başlıq - kitabın adı məsələsi çox həssas, zərif məqamdır. "Balyand və balyandlılar" şəklində getsə, daha yaxşı olardı. Kitabı oxuduqda, belə görünür ki, bu ifadələr arasında fərq gördüyünüz üçün - kənd adı ilə camaat - tirə, nəsil, soy-kök arasında fərq axtardığınız üçün bu yolu seçmisiniz. Öz fikrimi deyim ki, birincisi, mən kəndin adı ilə etnosun adı arasında fərq görmürəm və görməzdim də. Çünki bu özü elə bəri başdan ziddiyyət (bəlkə də, özünütəkzib) yaradan xoşagəlməz amildir. İkincisi, bundan ötəndən sonra, madam ki, fərq görürsünüz və balyandlıları balyat tayfası kimi hesab edirsinizsə, yenə də orfoqrafik xətaya yol vermisiniz. Belə olduğu halda, heç olmazsa, "balyatdılar" yox, "balyatlılar" yazılmalı idi. Kitabın içərisində isə kiminsə, yaxud elə hamının danışığında "balyatlı" sözünün "balyatdı" şəklində deyilişini göstərə və yaza bilərdiniz. Çünki sizin prinsipinizcə qəbul etsək, onda gərək, misal üçün, Qovşudlu kəndinin adı Qovşutdu, yaxud Qavşıtdı yazılaydı. Yaxud Qubadlı rayonunun adı "Qubatdı" (hətta bəzi bölgələrdə "Qubadlıdan olan" mənasında "filankəs Qubatdılıdı" deyib, "Qubatdılı" - "Qubatdı" yox, "Qubatdılı"dır deyirlər) şəklində yazılaydı.

Bir məqama da münasibət bildirim. "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə Balyand sözünün "Baylyand" şəklində getdiyini göstərib, təəccüblənirsiniz.Burada, söz yox ki, gözdən qaçan mexaniki orfoqrafik xəta hadisəsi baş verib. Çox güman ki, burada "y" hərfi "l" hərfindən əvvəldə səhvən gəlibmiş, sonradan korrektor düzəliş etmək istəyərkən, əvvəldə yanlış gələn "y" hərfinisilməyi yaddan çıxarıb və nəticədə belə bir formada çapa getmişdir. Yəni əvvəlcə "Bayland" şəklində olmuş, sonradan "y" və "l" hərflərinin yerlərini dəyişdirmək istərkən, əvvəldə gələn "y" hərfi silinməmiş və çapa da bu cür düşmüşdür. Bu, hər halda mənim gəldiyim qənaətdir. Ancaq bir versiya da mən irəli sürüm ki, "Balyand" sözünün ilkin variantı "Bayland" da ola bilər və "y" və "l" səslərinin yerdəyişməsi hadisəsi nəticəsində "Bayland" sözü "Balyand" şəklini ala bilər. Çünki "Azərbaycan" adındakı "bay", Gədəbəy sözündəki "gədə" və "bəy" (bay) sözləri və s. toponimlərimizdə ucalıq, böyüklük, hündürlük mənasındakı "bay" ifadəsi elə "Balyand"ın - "Bayland"ın da dağlarda yüksək relyef şəraitində olmasına bir sübutdur. Nəinki farsdilli "bölənd" sözünü yersiz yerə ortaya atıb, sonra da bunun əsassız olduğunu söyləməkdənsə, elə öz sözümüz olan "bay" sözü toponimin adında çox şey deyir. Gədəbəy sözü "gədə" - geda - keda (gədik sözünün ilk şəkli) olub, uca gədik, uca dağ (gədiyi) mənasını verdiyi kimi, Bayland toponimi də özündəki "Bay" ifadəsi ilə kəndin qərar tutduğu yüksək dağ relyefini işarələyir. Bütün bu dediklərimi kitabın müəllifləri - belə dəyərli və sanballı kitaba imza atan hörmətli qələm sahibləri düşünürəm ki, mənim səmimi duyğularım kimi qəbul edərlər. Kitab o qədər dibdən - dəhnədən yerli-yataqlı yazılıb ki, kəndin ümumi mənzərəsini göz önündə canlandırır.

"Ümumi məlumat" adı altında gedən bölümdən ilk abzasa diqqət çəkək: "Coğrafi mövqeyi - Kiçik Qafqaz dağlarının Qarabağ silsiləsinin ətəyində, Cəbrayıl rayonunun şimal-şərqində yerləşən Balyand rayonun 92 kəndindən biridir. Füzuli-Cəbrayıl avtomobil yolundan 1 km aralıdır. Balyandın ərazisi Füzuli rayonunun Qarakollu, Rəfədinli, Pirəhmədli kəndlərinə məxsus ərazi ilə həmsərhəddir. Qaracallı kəndi ilə bitişikdir. Quşçular, Doşulu, Süleymanlı kəndlərindən şərqdə, Daşkəsən, Quycaq, Mərcanlı, Nüzgar kəndlərindən şimalda, Saracıq, Qarakollu, Gorazıllı, Rəfədinli kəndlərindən cənubda, Pirəhmədli kəndindən qərbdədir. Əkin-biçin yerləri Pirəhmədli, Daşkəsən, Quycaq, Mərcanlı, Qaracallı kəndlərininki ilə əhatələnib".

Bu məlumatlar kəndin coğrafi mənzərəsini verir, bundan əlavə, kəndin iqlimi, bitki örtüyü və s. ilə bağlı ümumi məlumatlar da burda özünə yer alıb ki, bunlar hamısı Balyand kəndi ilə bağlı oxucularda yetkin təsəvvür formalaşdırır.

Təqdirəlayiq haldır ki, kitabda Balyand kəndinin tarixi, coğrafiyası və s. barədə geniş və əhatəli məlumatlar əksini tapmışdır. Kəndin haqqındakı "Tarixi oçerk" isə tarixi mərhələlər üzrə tarixi qaynaqlara isnadən izah olunmuşdur. "Balyandın yerləşdiyi region qədim, orta əsrlər və yeni dövrün əvvəllərində" başlıqlı yazının adından da göründüyü kimi, burada məsələyə sistemli yanaşma var. Belə ki, bu mətnin özü də "Balyand. XVIII əsrin sonu və XIX əsrdə", "XX əsrin əvvəllərində", "Sovet hakimiyyəti illərində", "Müharibə illərində (1941-1945)", "Müharibədən sonrakı illərdə (1946-1991)" kimi yarımbaşlıqlar adı altında tarix elmləri namizədi, dosent, Əməkdar müəllim Səttar Allahverdiyevin təqdimatında genişliyilə işıqlandırılmışdır. Ancaq bu qədər dəyərli bir yazıda da bir incə nüans diqqətdən qaçırılmışdır. Belə ki, kəndin şəhidlərinin adları sadalanarkən, Kəlbəcərdə şəhid olmuş Akif Abbas oğlu Əkbərovun Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldüyü qeyd olunmamışdır. Halbuki bunu müəllif bilirdi və kitab üzərində iş gedən ərəfələrdə bu haqda mənimlə telefonda danışmışdıq da.

XX əsrin əvvəllərində Balyand haqqında yazılanlardan bir hissəni diqqətə çəkirəm:

"1921-ci ildə Balyand kəndi Cəbrayıl qəzasının Qarakollu nahiyəsinə daxil idi. Balyand kənd sonralar Horadiz dairəsinin tərkibində olmuşdu. XX əsrin 20-ci illərinin sonunda Cəbrayıl qəzasında başlanan kollektivləşmə Balyand kəndini gec əhatə etdi. Hətta yaşlı adamların dediyinə görə, bəzi kəndlilər kolxoz haqqında təbliğatın təsiri altında qonşu kəndlərdə yaradılan kolxozlara daxil olmuşdular. Kolxozlara daxil olanların sayı 30-dan çox olduqda kolxozlar təşkil edilirdi. Kənddə 1929-cu ilə qədər bir neçə dəfə kolxoz yaratmağa cəhd edilmişdi, lakin bu təşəbbüs baş tutmamışdı.




Sovet hakimiyyətinin ilk illərində bir neçə il kəndlilərdən vergi alınmadı. Bunun səbəbi quraqlıq, bəzi ordu hissələrinin kəndləri talan etməsi və s. idi. Vəziyyət sabitləşəndən sonra Balyand kəndində də vahid kənd təsərrüfatı vergisi qoyuldu. 1929-cu il iyunun 29-da Balyand kənd Şurasının iclasında şuranın sədri Zaman İbrahimov komissiyanın vahid kənd təsərrüfatı vergisi verənlərin siyahısını oxudu və iclas siyahını təsdiq etdi. İclasda həm də varlılar üzərinə şəxsi vergi qoyulması məsələsi də müzakirə edildi və qərara alındı ki, Balyand kəndində şəxsi vergiyə düşən kəndli yoxdur.

1929-cu il noyabrın 29-da Balyand kənd Şurasının mədəni maarif iclasında Balyand kəndində gecə kurslarının açılması qərara alındı.

1930-cu ildə mərkəzi Balyand olmaqla Qaracallı, Doşulu kəndlərində kolxoz təşkil edilməsinə başlanmışdı. Balyand kəndi ərazisində hər il 450 hektar buğda, 100 hektar arpa, bundan əlavə noxud, darı və s. əkilmiş, əhalinin ehtiyacı üçün tərəvəz də, müxtəlif meyvələr də becərilmişdi." (s.28)

Göründüyü kimi, yeni dövr adlanan XX əsrin əvvəllərində Balyand kəndinin iqtisadi-inzibati vəziyyəti tarixi sənədlər əsasında açılıb göstərilir. Eyni zamanda kitabda ayrı-ayrı məqamlarda kənd əhalisinin kameral siyahısı da oxuculara təqdim olunur ki, bu da yazılanların əyaniliyinə şəhadət verir.

Kitabda özünə yer alan digər bir tarixi-coğrafi oçerkdə isə Qərib Qarannının fikirləri Balyand kəndi və əhalisi haqqında dəyərli məlumatları özündə əks etdirir: "Balyandın bir kənd kimi formalaşması" adı ilə təqdim etdiyi yazıdan oxuyuruq:

"Balyandın Balyand adında yaşayış məskəni - kənd kimi binə olması Xırdapara Dizaq mahalının mövcud olduğu dövrə aid etmək ağlabatan görünür. Xanlıqlar dövrünün qarmaqarışıqlığı, Qacar qoşunlarının iki dəfə Qarabağa hücumu, Çar qoşunları və Şah qoşunlarının apardığı müharibələr Arazın həm cənubunda, həm də şimalında yerli əhaliyə min bir fəlakət və müsibət gətirir, bir çoxlarının dədə-baba yurdunu "Allaha pənah" deyib tərketməsi ilə nəticələnirdi. Şübhə yoxdur ki, dədə-baba yurdunu tərketmələrin ailə-məişət, şəxsi faciə, adət-ənənə, xoş güzəran, səfalı yer axtarma zəminində meydana çıxan başqa səbəbləri də vardı. Balyandı, yaxud sonra Balyand adlandırılacaq məkanı seçib özlərinə yurd edənlərin - indiki balyatdıların ulularının ora haradan, nə səbəbə gəlmələri haqqında tarixi sənədlər bir söz demir. Lakin balyatdıların bir kişidən yox, 10-15 kişidən qalan, indi nisbi mənada "tayfa" adlandırılan nəsillərdən ibarət olması aşkar məsələdir. Yaddaşlarda qalan rəvayətə görə, Balyandda ilk yurd salanlar 3 tayfanın - soltanmuradlılar, tağılılar və mehdixanlıların başlanğıcı olan 9 ailə olub. Qalanları onların qohumu, dostu, tanışı, keçmiş həmyurdlusu olaraq onlardan sonra gəliblər. İlk gələnlər XX əsrin 50-ci illərində də Balyandın mərkəzi olan yerdə Allahverdi dağının vaxtilə məscid, sonralar klub yerləşən ətəyində, dərənin yaxınlığında saldıqları qazmalarda yaşayıblar. Nəzərə alınsa ki, dərənin həmin tayında XX əsrdə nə mehdixanlı, nə də tağılı vardı, onda bunların müəyyən vaxt keçəndən sonra Çaqqalaşdı təpəsinin güney ətəyində yurd saldıqlarını düşünmək olar. İlk sığınacaqlar, qazmalar, bir az sonra damlar Boğazdan gələn dərənin sağ və solunda həm ona yaxın, həm də sıx olmuşdur". (s.39)

Bir qədər sonra isə Qərib müəllim sanki yazı ilə Balyandın topoqrafik xəritəsini cızır, kəndin yolu-ir izi, cığırları, yer-yurd adları, bağ, bulaq, kəhrizlər və s. barədə incə detallarına qədər ətraflı məlumatları çatdırır. Deyərdim ki, bu yazıların işığı ilə hərəkət edə biləcək gənclər - Balyanddan kənarda doğulub Balyandı görməyən balyandlılar (müəllifin təbirincə, "balyatdılar") kəndə qayıdanda, bu məlumatlardan yol bələdçisi, cığır-iz bələdçisi kimi yararlana bilərlər. Bu da kitabın əhəmiyyətini artıran başlıca amillərdəndir ki, deməli, kitab sadəcə nəzəri baxımdan yox, praktiki cəhətdən də bugünkü və gələcək nəsillər üçün müstəsna bir funksiya daşıyır.

Ardınca yenə tarixçi alim Səttar Allahverdiyevin "Balyandın otlaq-örüş, əkin-biçin yerləri" adlı yazısı gəlir ki, bu da kəndin kənd təsərrüfatı sahəsində malik olduğu mövcud ərazi və xammal potensialını açıb ortaya qoyur. Kəndin ayrı-ayrı mənzərələrini əks etdirən foto şəkillərin burada özünə yer alması ilə kitabı əyani vəsait baxımından da zənginləşdirən bir aləmətdir. Yer-yurd adları ilə bağlı verilən ayrıca xüsusi izahlar da xüsusi təqdirəlayiq cəhətlərdən sayılmalıdır. Misal olaraq orda "Tiyaz" (Teyaz) adı ilə verilən bir neçə cümləlik izaha baxaq: Tiyaz (Teyaz) - Xələşdağından qərbdə, Füzuli-Cəbrayıl asfalt yolunun solunda yerləşən ərazi. Burada əvvəllər növbə ilə noxud, qarğıdalı, buğda və s. əkirdilər, 1970-80-ci illərdə üzümlük əkilmişdi. Teyaz "tey və az" tərkiblərindən ibarətdir. "Tey" sözünün qədim türk dillərində "qılınc, neştər, nizə" mənaları vardır. Ərazi xarici görünüşünə görə birazca qılınca, neştərə bənzədiyinə görə belə adlandırılmışdır." (s.68)

Burada həm toponimin adı, həm izahı dilçilik baxımından verilmiş, həm də kənd təsərrüfatı üçün əhəmiyyətliliyi göstərilmişdir. Bu nöqteyi-nəzərdən yanaşdıqda kitabda adları çəkilən toponimik adlar silsiləsinin hamısına bu cür dolğun şərh və izahlar verildiyini bir daha təsdiqləyərik.

"Balyand ocaqları" adlı oçerkdə Qərib müəllim kəndin ziyarətgahları barəsində müfəssəl şəkildə bəhs etmişdir: İspiri ocağı, Çinar ocağı, Xırxa ocağı, Kol ocağı, Düldül ocağı haqqında verilən bilgilər əhalinin inancı ilə bağlı bilgiləri ortaya qoyur.

Kitabın 83-cü səhifəsindən "Balyatdılar" bölməsi başlayır. Burada artıq kəndin əhalisi, kəndin ayrı-ayrı nəsil, tayfa, tirələri - soy, nəsil şəcərəsi, 7 arxadönəmdən tutmuş üzü bəri şəcərə ağacı barədə məlumatlara geniş yer ayrılmışdır. Burada da Qərib müəllimin, Oqtay Əhmədovun, Səttar müəllimin müxtəlif baxış bucaqları haqda məlumatları özünə yer alıb. Həmçinin "Balyatdıların əsas məşğuliyyəti" adı ilə kənd camaatının əkinçilik, bağçılıq, üzümçülük, baramaçılıq, qoyunçuluq, quşçuluq, maldarlıq, xalçaçılıq kimi müxtəlif sahələrdə əmək fəaliyyəti barədə müfəssəl bilgilər əksini tapmışdır. Eyni zamanda camaatın məişət mərasimlərini necə keçirmələri ilə bağlı da etnoqrafik səciyyəli adət-ənənələrindən də əhatəli yazılıb.

"Balyatdı nəsilləri" adlı geniş bir bölmədə isə kəndin ayrı-ayrı nəsil və tayfaları haqqında geniş məlumatlar əks olunub. Alılar, Burcalılar, Fərruxlular, Fətəlilər, Gözəlxanlılar, İbililər - Güneylilər, İrannılar, Qarannılar, Maşadılar, Mehdixanlılar, Mustafalılar, Nəsirilər, Nəvəlilər, Sifanlılar, Soltanmuradlılar, Tağılılar adlanan nəsillər haqqında yazılanlar adları çəkilən törəmə-tayfaların nəsil-soy şəcərəsi barədə stolüstü kitab kimi əvəzsiz qiymətindən xəbər verir. Bu bölmədə bir neçə yerdə rast gəldiyim ad-ata adı ilə bağlı yazılış (əslində deyiliş) qəlibi diqqətimi çəkdi. Məsələn, Qarannılar bölümündə Alı (Əli) oğlu Zaman, Zaman oğlu Muxtar, Alı oğlu Rəhim, Rəhim oğlu Göyüş, Alı oğlu Ağa, Zaman oğlu Hüseyn, yaxud Alılar tayfasında Məmmədhüseyn oğlu Hüseyn, Bürcalılarda Fərzalı oğlu Hüseyn, Alı oğlu Kərbəlayı Səfixan, Asdan oğlu Bürcalı, Fərruxlularda Məhərrəm oğlu Məstalı, Fərrux oğlu Məmmədalı, Fərrux oğlu Alı, Fətəlilərdə Baxşalı oğlu Şirin, Baxşalı oğlu Hüseynqulu, Gözəlxanlılarda Babaoğlu Gülməmməd, Gülməmməd oğlu Xanməmməd və başqa bu kimi ad və ata adı (əslində bunu soyad kimi də başa düşmək olar) göstəricilərində ata adının qabağa keçməsi, addan əvvəldə yazılması mənə çox xoş gəldi. Hər şeydən əvvəl, ona görə ki, xalq içərisində, el arasında ta əzəldən bu cür deyiliş şəkli olub və sabitləşmiş qəlib şəkli alıb. Deməli, xalq təfəkkürü - milli düşüncə üçün bu cür qəlibformullar tipik keyfiyyətdir. Əslində bu gün də bu ənənə davam etdirilməlidir. Kənd yerlərində indi də bu cür hallara rastlanılmaqdadır. Ata adı ataya hörmət - ehtiram əlaməti olaraq bizim xalqın düşüncəsində həmişə adamın öz adından qabaqda gəlib, ona görə də filankəs oğlu filankəs tipində qəlibləşib. Daha "müasirləşdirilmiş" "filankəs filankəs oğlu" şəklində deyilməyib. Kitabda əksini tapmış bu cür əski qəlib formulların olması bir kəndin sakinlərinin timsalında böyüyə-ataya qoyulan hörmətin inikası kimi düşünülməlidir. Elə "Balyand və balyandlılar" kitabı da bir kəndin ziyalılarının böyüklərə - ululara sevgi və hörmətinin dərin ifadəsi olaraq araya-ərsəyə gəlmişdir.

**Şakir ALBALIYEV**




# ŞƏRƏFLİ ZABİT HƏYATI



*Peşəkarlığı və humanistliyi, nəzəri və praktiki biliyi, işgüzarlığı və mənəvi keyfiyyəti, dəqiqliyi və təmkini ilə, sadəliyi və səmimiyyəti ilə seçilən, ömrünün ən məhsuldar dövrünün 30 ildən çoxunu hərbi xidmətdə keçirən Silahlı Qüvvələr və Müharibə Veteranı, ehtiyatda olan polkovnik-leytenant Məmmədov İlqar Məhəmməd oğlu haqqında danışmazdan əvvəl onun rəsmi tərcümeyi-halı ilə tanış olaq:*

Məmmədov İlqar Məhəmməd oğlu 03 yanvar 1968-ci ildə Cəbrayıl rayonunun Çullu kəndində anadan olub. 1983-cü ildə kəndlərindəki 8 illik məktəbi bitirib.

O, 1985-ci Cəbrayıl şəhərində orta məktəbi başa vurur (əla qiymətlərlə), 1990-ci ildə Sverdlovsk Ali hərbi siyasi tank artilleriya məktəbini artilleriya ixtisası üzrə bitirib. Daxili Qosunlarda xidmət etdiyi illər ərzində bir çox kurslarda, metodiki-təlim toplanışlarda, komanda-qərargah (xüsusi-taktiki) təlimlərdə, seminar və konfranslarda fəal iştirak edib.

Məmmədov İlqar Məhəmməd oğlu 1990-1991-ci illərdə Müdafiə Nazirliyinin hərbi hissələrində bölük komandirinin müavini, Artilleriya ximətinin rəisi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin Gəncə və Sumqayıt şəhərlərində, Nərimanov, Xətai, Lənkəran və Xəzər rayonlarında yerləşən hərbi hissədə və Ali hərbi məktəbdə, bölük komandirinin müavini, Artilleriya ximətinin rəisi, tabor komandiri, hərbi hissə komandirinin birinci müavini, hərbi hissə komandirinin müavini-qərargah rəisi, Daxili Qoşunların Ali Hərbi məktəbində isə kafedra rəisinin müavini vəzifələrində Vətənə, Dövlətə və xalqa sədaqətlə xidmət edib.

Polkovnik-leytenant İlqar Məmmədov Azərbaycanın ərazi bütövlüyü uğrunda (Qazax, Goranboy, Murovdağ, Ağdam, Ağdərə və Füzuli istiqamətində) gedən döyüşlərdə iştirak edib və yaralanıb .

Hərbi xidməti vəzifələrinin icrası zamanı yüksək mənəvi döyüş keyfiyyətləri göstərdiyinə görə, döyüş və ictimai siyasi hazırlığında, hərbi intizamın möhkəmləndirilməsində yüksək göstəricilərə nail olduğuna və nümunəvi xidmətinə görə Daxili İşlər Nazirinin və Daxili Qoşunlar Komandanının müvafiq əmrləri ilə əla xidmətlərə görə döş, yubley və müvafiq idman dərəcəsi nisanları ılə təltif olunub, vaxtaşırı olaraq pul mükafatları ilə, fəxri fərmanlarla, qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Döyüş hazırlığındakı əla göstəricilərə görə, təlimlərdə, döyüş xidməti və döyüş növbəsində xüsusi fərqlənməyə görə, şücaət və fədakarlıq xidmətlərinə görə SSRİ Ali Soveti və Azərbaycan Respublikasının Prezidenti adından Daxili İşlər Nazirinin müvafiq əmrləri ilə "Silahlı Qüvvələr Veteranı", "Qüsursuz Xidmətlərə Görə" 1-ci, 2-ci və 3-cü dərəcəli döyüş hazırlığı medallarıyla, "Silahlı Qüvvələrin yaranmasının" isə 70 illiyi, 90 illiyi və 95 illiyi yubiley medalları ilə təltif olunub.

İlqar Məmmədov həmçinin 2009 və 2010-cu illərdə DİN və Daxili Qoşunlar Komandanı tərəfindən "Əla xidmətlərə görə" medalı ilə təltif olunmuşdur.

İlqar Məmmədov bizimlə yaxın ərazidə bir sovetliyə daxil olan qonşu kənddəndir. Məndən bir sinif yuxarıda oxuyub. Yaxşı yadımdadır, orta məktəbi bitirib Xarkov şəhərinə getdi, müvəffəq qiymətlər alıb ali hərbi məktəbə daxil oldu. Cəbrayıl şəhərində adı dillər əzbəri olan rəhmətlik Sahib Bayramovdan riyaziyyatın bütün sirlərini öyrəndiyindən, qəbul olduğu ali hərbi məktəbdə də riyazi düstur və hesablamaları çevikliklə və dəqiqliklə həll etməsi ilə müəllimlərinin diqqətini cəlb etmişdi. Lakin o, nə fikir-xəyal edirsə, ordakı müəllimləri də nə qədər təkid edirlərsə də, İlqar yenicə daxil olduğu bu ali hərbi məktəbi buraxıb, Azərbaycana dönür. Elə həmin il də Azərbaycan Texniki Universitetinin qiyabi şöbəsinə imtahan verib qəbul olur. Onun Xarkovdakı ali hərbi məktəbi atıb Bakıya gəlməsi, üstəlik də Bakıda ali məktəbə öz biliyi və savadı sayəsində qəbul olması isə köhnə kişilərdən olan İlqarın atası Məhəmməd kişini razı salmırdı. Elə hey İlqara tənə edib deyinir ki, yox ey, bala, hərbi məktəbdə oxumağın ağırlığını sən çəkə bilməzsən, ona görə də Ukraynada oxumayıb, Azərbaycana döndün. Hərbi məktəbdə oxuya bilmək hər adamın hünəri deyil...

İlqarla söhbət edərkən deyir ki, atamın bu sözü daxilən məni narahat edirdi. Atam elə bilirdi ki, mən çətinlikdən - əziyyətli olmasından bezib hərbi təhsilimi yarımçıq buraxmışam. Hələ üstəlik də Bakıda ali məktəbə qəbul olmağımın da atamı açmaması məni qarşıma başqa məqsəd qoymağa sövq etdi. Yenidən Bakıdakı ali təhsilimi də davam etdirməkdən vaz keçdim. Sənədlərimi Sverdlovskdakı ali hərbi məktəbə verdim və beləcə mənim hərbi həyatımın başlanğıcı qoyuldu.



İlqarın söhbətindən o da məlum olur ki, atası Məhəmməd Bayramoğlu o vaxt - 1950-ci illərdə 4 il rus sovet ordusunda xidmətdə olub. O vaxt əsgər yoldaşları arasında sərrast atıcı olması ilə dəfələrlə fərqlənib, hətta buna görə evlərinə məzuniyyətə də gəlibmiş. Deməli, burdan həm də o nəticə hasil olur ki, İlqarın atası Məhəmməd dayı da əsgərlikdə cüssəli və ən yaxşı atıcı kimi əsgər yoldaşları arasında xüsusi olaraq seçilib, fərqlənirmiş. Görünür ki, İlqar Məmmədovun hərbçi olmaq taleyi həm atasının



qanından - genindən, həm də elə atasının öyüdündən -nəsihətindən keçib gəlib. Başqa sözlə, mən İlqar Məmmədovun hərbi həyatını ata genindən - qanından və ata tərbiyəsindən gəlmə xarakterik əlamətlər kimi səciyyələndirirəm.

Mən yuxarıda əbəs yerə diqqətə çəkmədim ki, İlqar məndən bir sinif yuxarıda oxuyurdu. Növbəti ildə, yəni mən də orta məktəbi bitirmək ərəfəsində olarkən, məni də göndərişlə Rusiyaya ali hərbi məktəbə göndərirdilər. Mən də düzü, hazırlaşırdım getməyə. Ancaq sonradan fikrimdən daşınası oldum. Azərbaycan dili və ədəbiyyatı müəllimi olmaq seçimimə üstünlük verdim.

İlqar Məhəmməd oğlu Məmmədov Rusiyada - Sverdlovsk şəhərində Ali Hərbi Siyasi Tank-Artilleriya Məktəbini bitirdikdən sonra doğma Azərbaycanımıza qayıdır. Bununla da onun hərbi həyatının yeni mərhələsi başlayır. Başqa cür desək, onun xarici ölkədə - Azərbaycandan xaricdə aldığı təhsil öz doğma vətəninə xidmət eləmək məramının üstünə kölgə salmırdı, əksinə, doğma Azərbaycanımıza ixtisaslı hərbi kadr kimi xidmət edə bilmək baxımından xüsusi şans verirdi. Elə buna görə də o, öz hərbçi ixtisasına müvafiq olaraq müxtəlif bölgələrdə Vətənimizin azadlığı və xilası naminə fədakarlıqlar göstərir. Onunla söhbət əsnasında bir maraqlı faktı da eşitdim. Sverdlovskda ali hərbi məktəbdə bir yerdə oxuduqları Şaiq Əsgərovla Ağdərədə Mehmanə yüksəkliyi uğrunda gedən döyüşlərdə təsadüfən rastlaşıblar. Tələbəlik dövründən sonra ilk dəfə vətənin müdafiəsi və azad edilməsi uğrunda gedən döyüşlərdə qarşılaşmaları da həyatın qəribəliklərindədir. Görünür, həyatdakı təsadüflər də təsadüfi olmur. Belə ki, hər ikisi Azərbaycandan kənarda ali təhsil alsa da, ürəkləri doğma Azərbaycan üçün döyündüyündən, aldıqları hərbi ixtisas üzrə bilik və bacarıqlarını doğma vətənə sərf etməklərinə ürəklərində qərar veriblər. Məhz bu əsaslı səbəbdən də xaricdə təhsil almaqla vətənə xidmət etmək amalı onları doğma torpaqda - vətənin dar günündə vətənə hay verən igid eloğullar kimi qarşılaşdırıb.

İlqar müəllimdən maraqla soruşdum ki, Şaiq indi haradadır, yaşayırmı? Sevincək cavab verdi ki, bəli, şükür Allaha ki, salamatdır, bu da Allahın bir qismətidir, Şakir müəllim. Döyüş alnımıza yazılmışdı, döyüşdük də, ağır sınaqlardan çıxdıq da, indi də şükür ki, ikimiz də sağ-salamatıq.

Qeyd edim ki, İlqar Məmmədov vətənimizin azadlığı və suverenliyi uğrunda zabit kimi fəaliyyəti ilə yanaşı, öz ixtisas və peşə bacarığını artırmaq məqsədilə bir



neçə xarici ölkədə də olmuşdur. 2007-ci ildə 2 dəfə qardaş Türkiyədə komando və jandarma məktəblərində kurslarda olub və müvafiq sertifikatlar alıb. 2006-cı ildə ona İsrail Antiterror Təlim Akademiyasın tərəfindən asayiş və iğtişaşlara nəzarət kursunu uğurla bitirdiyinə görə sertifikat verilmişdir. Həmçinin əlbəyaxa hərbi döyüş fəndləri üzrə fərqləndiyinə görə də İsraildən sertifikat almışdır. 2005-ci ildə ABŞ-da fövqəladə hallarda qarşıdurma zamanı keçirilən təlimlərdə fəallığına görə də sertifikatla təltif olunmuşdur.

Onu da diqqətə çatdırım ki, ayrı-ayrı vaxtlarda İlqar qardaşımızın hərbi həyatı ilə bağlı dövri mətbuatda reportajlar da verilmişdir. Azərinformun məlumatından tutmuş ayrı-ayrı mətbu orqanlara kimi İlqar Məmmədovun döyüş şücaəti haqda yazılar öz əksini tapmışdır. Misal üçün, "Əsgər" qəzetində getmiş "Daxili qoşunların baş idarəsində metodiki-təlim toplanışları" yazısında kapitan rütbəsində olarkən, "Azərbaycan gəncləri" qəzetinin xüsusi müxbiri Rəşid İsgəndərovun "Əskipara hekayəti" adlı yazısında isə leytenant rütbəsi daşıyan zaman İlqar Məmmədovun zabit həyatının fraqmentlərindən söz açılır. "Əskipara hekayəti" yazısında jurnalist İlqar qardaşımızın ifadələrinə əsaslanaraq Əskipara kəndi uğrundakı döyüşlərdə praporşik Rizvan Xəlilovun, türkmən əsgər Yağmur Yağdıyevin şəhid olduqlarından, baş serjant Şirvan İsmayılovun yaralanmasından söhbət açır.

Onu da məlumat üçün qeyd edim ki, hələ Cəbrayılda ikən - 1990-cı ildə kəndimizdəki orta məktəbdə müəllimlərimizdən Musa Abasquliyev, Alkərəm Mahmudov, Əyyub Abasquliyev, Nazir Məmmədov, Volodya Quliyev, Əli Quliyev və başqalarının iştirakı ilə məktəblilərlə leytenant İlqar Məmmədovun görüşü keçirildi və o görüşü mən onda indi baş redaktoru olduğum yerli "Xudafərin" qəzetində işıqlandırdım. O vaxt İlqar Qazax bölgəsində xidmət edirdi.

İlqar Məmmədov 1991-1992-ci illərdə anklav ərazi olan Qazax rayonunun Yuxarı Əskipara kəndində xidmət edib, torpaqlarımızın müdafiəsində, dinc əhalinin qorunmasında fədakarlıqlar göstərib. Ermənilərin yaşadığı Voskipar kəndinin içindən keçib ora getməyin nə qədər təhlükəli olduğunu və adamdan nə qədər dərəcədə cəsarət tələb etdiyini deməyə artıq ehtiyac yoxdur. Oradakı atışmalarda Çingiz adlı polisin vurulduğunu və neytral ərazidən onun nəşinin götürülməsinin də hansı çətinliklərlə başa gəldiyini demək aydındır.

*(Davamı səhifə 6-da)*





VETERANLARIMIZ

# ŞƏRƏFLİ ZABİT HƏYATI



(Əvvəli səhifə 5-də)

Bir məqamı da deyim ki, özünün toyu ərəfəsində Yuxarı Əskipara kəndində ermənilərin mühasirəsinə düşübmüş. Düşmənin mühasirəsindən çıxıb, gəlib kəndə, toyu olandan 3 gün sonra isə yenidən bu təhlükəli cəbhə zonasına qayıdıb və hərbi həyatına davam edib. Bax budur haqqında söz açdığım igidimiz-polkovnik-leytenant İlqar Məmmədovun "dəliqanlılığı" - ömrünün ən həssas çağlarında belə düşmənlə üz-üzə, göz-gözə dayanmaqdan çəkinməyib. Bir informasiyanı da əlavə edim ki, İlqar 1990-cı ilin sentyabrında, mənim sinif yoldaşım olan Fərhadova Tərgül Bahadur qızı ilə ailə həyatı qurub. İki qız: Sahilə (1991), Ləman (1993), bir oğul: Rauf (1997) atasıdı. Qızı Sahilə tibb texnikumunu, Ləman SDU-nun İnformasiya Texnologiyası mühəndisliyi fakültəsini, oğlu Rauf Bədən Tərbiyəsi İnstitutunu bitirib. Qızları ailəlidir, oğlunu isə yaxın gələcəkdə evləndirmək arzusundadır. Göründüyü kimi, Vətən qazisi İlqar Məhəmmədoğlu həm də nümunəvi ailə sahibidir.



Ailədən söz düşmüşkən bir incə nüansı da nəzərdən qaçırmaq istəməzdim. İlqarın həyat yoldaşı Tərgül sinfimizin qızları içərisində savadı, çevikliyi və cəsarəti ilə həmişə seçilirdi. İstefada olan leytenant kimi Volodya Mehdi oğlu Quliyev bizə ibtidai hərbi hazırlıq fənnindən dərs keçirdi və həmişə də sinfə avtomat, pulemyot gətirər, onun sökülüb-yığılması, təmizlənməsi qaydalarını bizə nümayiş etdirər, öyrədərdi. Bax həmin dərslərdə də Tərgül xüsusi fərqlənərdi.

Elə bil ki, intuitiv olaraq taleyinə hərbçi ilə ailə həyatı quracağı əyan olubmuş. Avtomatı tez və dəqiqliklə söküb-yığmağı, bir sıra hərbi fəndlərin sirlərini öyrənmişdi və o vaxt Cəbrayıl şəhərində keçirilən hərbi yarışlarda iştirak edib uğur qazanmışdı. Onu da deyim ki, Tərgüldəki hərbi həyata meyllilik həm də onun nənələrinin qoçaqlığından, cəngavərliyindən doğan genetik xüsusiyyətdir. Belə ki, Dağ Maşanlı qaçaqlarının qoçaqlığı, o qaçaqlarla birgə döyüşən Gilə nənə, Minə nənə, Minarə nənə kimi cəngavər xislətli nənələrimiz haqqında bu gün canlı əfsanə kimi danışırlar. Polkovnik-leytenant İlqar Məmmədovun ailə həyatı qurduğu Tərgül Bahadur qızı Fərhadova şəcərəcə həmin qəhrəman nənələrə bağlanır və onların yolunu cəbhə bölgəsində davam etdirib. Belə ki, o vaxt blokada şəraitində olan Qazaxın Yuxarı Əskipara kəndində xidmət edəndə, zabit-döyüşçü heyəti içərisində yeganə olaraq İlqar həyat yoldaşını da özü ilə ora gətiribmiş. Hətta döyüşçü yoldaşları yarızarafat-yarıciddi İlqara deyirmişlər ki, əsl qəhrəman sənin həyat yoldaşındır ki, o, səni bu dar vaxtda, çətin ayaqda tək qoymur. Bu fakt bir daha dastanlarımızdakı Nigarın Koroğlu ilə, Həcərin Qaçaq Nəbi ilə çiyindaş-silahdaş olduqları haqda öyünc duyğularımızın da Tərgüllə İlqarın timsalında həqiqətlə səsləşdiyini sübut edir. Başqa sözlə, mif reallığı, reallıq da mifi təsdiq edir.

Tərgülün özü ilə söhbət zamanı o illəri şirin və həzin duyğularla xatırlayıb, deyir ki, bir dəfə İlqar postdan evə gəlib gördü ki, evdəki avtomatı söküb təmizləyirəm. Təəccüblə nə eləyirsən, sən bunları hardan bilirsən, - deyə soruşduqda, cavab verdim ki, elə bilirsən elə təkcə sən bilirsən belə şeyləri. Sonra İlqara bunları orta məktəbdə hərbi hazırlıq dərslərindən öyrəndiyimi, hərbi yarışlarda iştirak etdiyimi dedim.

Daha sonra Tərgül xanım Yuxarı Əskipara camaatından razılıq etdi, bildirdi ki, o vaxt kəndin sakinləri, kəndin ingilis dili müəllimi olan Camal müəllim və həyat yoldaşı Pəri xala, Mansur dayı və həyat yoldaşı Marusya xala, eləcə də başqaları bizə hərbçi ailəsi kimi çox qayğıkeşlik göstərirdilər. Bu məqamda İlqar söhbətə müdaxilə edib qeyd etdi ki, Camal müəllimin oğlu Novruz polis idi, döyüşlər başlayanda o da bizə köməyə gəlirdi.

Tərgül onu da yada saldı ki, hərbi qərargahda müzakirə keçirilib və deyilib ki, heç kəsin ailəsi burda təhlükəli ərazidə qalıb yaşamır. Ona görə də hərbi hissə komandanlığı müəyyən bir qərara gələrək İlqarın ad günündə bizə Gəncədə 1 otaqlı finsk ev hədiyyə etdilər.

Daha sonra Tərgül xanım onu da xatırlatdı ki, biz İlqarla Füzulidə, Horadizdə də uşaqlarımızla birgə döyüş bölgəsində olmuşuq. Gecənin bir vaxtı olurdu ki, qəflətən atışma başlayırdı. O vaxt mən uşaqlarla birgə həyəcan keçirib, yağırbağır olurduq. Bax belə əziyyətli günlərimiz çox olub... Bu söhbətdən sonra bir daha zabit arvadı ola bilməyin də qəhrəmanlıq, şücaət tələb etdiyinin fərqinə varırsan...

Polkovnik-leytenant İlqar Məmmədovun cəbhə həyatı keşməkeşli keçib. 1992-ci ilin 14 iyununda Göygöl rayonunun Sarısu kəndi ətrafında böyük Canbaz yüksəkliyi uğrunda gedən döyüşlərdə tank əleyhinə minanın partlayışı nəticəsində ağır yaralanır. Gəncə qospitalında müalicə alıb yenidən döyüşlərə yollanır... Canbaz yüksəklikləri, Manaşid, Erkəc, Buzluq kəndlərinin düşmənlərdən azad edilməsində artilleriya rəisi kimi fəal iştirak edən zabitimizlə söhbətimiz xeyli çəkdi. 1992-ci ilin 2 fevralında Ağdərə rayonunun Mehmanə kəndi və Mehmanə yüksəkliyini düşmənlərdən azad edərkən düşmənin 100-dən çox canlı qüvvəsinin məhv edildiyindən danışdı.

Ancaq həmin döyüşdə bizim də itkilərimizin olduğunu da təəssüflə dilə gətirdi. Bildirdi ki, həmin döyüşdə tağım komandiri baş leytenant Bayram Məmmədov və onun tağımı - 20 nəfərədək döyüşçüsü şəhid oldu. Olduqca çətin relyef şəraitində gedən o döyüşdə həmin tağımdan Eldar Alqayev sağ qalan tək əsgər idi. İki nəfərimiz - gizir Həmzəyev və əsgər Cavadov isə o döyüşdə itkin düşdülər. Düşmənin isə demək olar, bir bölüyü büsbütün məhv edildi. Həmin döyüşdə düşmən tərəfindən aparılan əks-hücuma baxmayaraq, mənim rəhbərliyimlə açıq döyüş meydanında qalmış şəhidlərimizi və yaralılarımızı çıxartmağa nail olduq. Döyüşçü yoldaşlarımızdan kapitan Elfaq İmanov, kapitan Şaiq Əsgərov, kapitan Rüstəm Niyazov, polkovnik-leytenant Səfixan Bayramov, gizir Fərhad Nağıyev və başqaları bu döyüşdə hədsiz fədakarlıqlar göstərdilər.



Polkovnik-leytenant İlqar Məmmədov danışdıqca Azərbaycanımızın müstəqilliyi yolunda azadlıq mücahidlərimizin apardıqları qanlı-qadalı döyüş səhnələri gözümün önündə canlanırdı. Onun söhbətlərini dinlədikcə bir daha azadlığımızın qanla alındığının fərqində olursan. Vətənimiz uğrunda "qanını qaşığa qoyan" - canı və qanı bahasına döyüşənlər xalqımızın iftixarı olan qəhrəmanlarımızdır. O qəhrəman eloğullarımızın birinin simasında bu yazımda İlqar Məmmədovla oxucularımızı tanış etmək istədim.

**Şakir ALBALIYEV**

# Şəhid ailələri və qazilərlə görüş

**Cəbrayıl Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası Cəbrayıl rayon təşkilatının təşəbbüsü ilə "Xudafərin" şadlıq sarayında şəhid ailələri, müharibə veteranları və əlilləri ilə görüş keçirildi. Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən və Dövlət Himnimiz səsləndirildikdən sonra tədbirin aparıcısı filologiya üzrə fəlsəfə doktoru Tariyel Abbaslı iştirakçıları salamladı. Sözü tədbirin təşkilatçısı olan YAP rayon təşkilatının sədri Arif Fərzəliyevə verdi.**









Arif müəllim çıxışında Yeni il və 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü ilə bağlı şəhid ailələrini, Qarabağ qazilərini salamlayıb, təbriklərini çatdırdı. "Xudafərin" şadlıq sarayının rəhbəri, Cəbrayıl rayon Ağsaqqallar Şurasının Fəxri sədri Səyavuş Yusif oğlu Əsgərovun məclis iştirakçıları üçün zəngin süfrə açdığına görə təşəkkürlərini çatdırdı və qeyd etdi ki, Səyavuş müəllim rayonumuzla bağlı keçirilən bir çox tədbirlərdə bu cür qonaqpərvərlik göstərib.

YAP sədri Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənovun da təbrik və salamlarını tədbir iştirakçılarına çatdırıb, müəyyən səbəblərlə bağlı burada iştirak edə bilmədiyini dedi.

Arif Fərzəliyev çıxışında Azərbaycan ordusunun 44 günlük rəşadətli döyüş yolundan, Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında qazanılan möhtəşəm qələbədən söz açdı. Qeyd etdi ki, bu tədbirə 1-ci və 2-ci Qarabağ müharibəsi şəhidlərinin ailələri, habelə vertolyot qəzasında şəhid olan həmyerlimizin ailəsi, 2022-ci ilin 13 sentyabrında şəhid olan leytenant Ravil Hümbətovun ailə üzvləri də dəvət olunublar.

Arif müəllim vətən uğrunda candan keçən şəhidlərimizə Allahdan rəhmət diləyib, qazilərimizə cansağlığı arzuladı.

Milli Məclisin üzvü Ceyhun Məmmədov çıxışında 44 günlük müharibədə birlik, həmrəylik nümayiş etdirməklə ermənilərin xam xəyallarını puç etməyimizdən, rayon Ağsaqqallar Şurasının sədri Vaqif Məhərrəmov əsgərlərimizin yenilməz ruhundan, rayon Ağsaqqallar Şurasının Fəxri sədri Səyavuş Əsgərov isə Azərbaycan ordusunun tarix yazdığından iftixar hissi ilə söhbət açdılar.

Ruslan Səfəroğlu, Tağı Salehoğlu, Vüsal Zamanov və başqalarının ifalarında vətənpərvərlik ruhlu mahnılar səsləndirildi. Səbuhi İbrahimoğlu, İxtiyar Hüseynli, Rasim Paşayev, Aytən Fətullayeva, Vidadi Orucov, Mehman Hüseynov və başqaları vətən fədailəri olan şəhidlərimizin və qazilərimizin ünvanına təşəkkür duyğularını ifadə etdilər.

1-ci Qarabağ müharibəsində şəhid olmuş Söhrab Məmmədovun qardaşı Malik Əhməd oğlu şəhidlərimizin əziz xatirəsi işığında yazdığı şeiri səsləndirdi.

Tədbir iştirakçıları və şəhid ailələri, qazilər görüşdən müxtəlif anları əks etdirən xatirə şəkilləri çəkdirdilər.

**Şakir PİRƏSƏDLİ**

# Yurda keşik çəkən məzar



**Əslən Sirik kəndindən olan Səmərqənd dayı həyat yoldaşı Nubar xala ilə Cəbrayıl şəhərinin mərkəzində şad-xürrəm bir ömür yaşayırdılar. Allah-təala oğul-qız sarıdan paylarını da vermişdi: Arzu (1969), Arifə (1971), Qərib (1972) və Qürbət (1973); 2 oğul, 2 qız böyüyürdü ailədə. Qızlar evin yaraşığı, oğullar evin (və elin) dayağı idilər. Ailədə övlad-uşaq nə qədər çox olsa da, hərəsi evdə-ailədə özünəməxsus bir biçimdə sevilir, əzizlənir.**

Xalqımızın ənənəsindən gələn bir deyimimiz də var: “Evim-eşiyim, son beşiyim”. Bu mənada evin son beşik oğul övladları ata yurdunda qalıb, evin-ailənin çırağını yandıracaq varis kimi düşünülüb. Səmərqənd dayı ilə Nubar xalanın sonbeşikləri də Qürbət idi. Qızları Arzu və Arifəni gəlin köçürüb, oğlu Qəribi evləndirib yerbəyer edəndən sonra isə ailənin yekun toy akkordu kimi Qürbətin toyunu edəcəkləri fikri-xəyalı ilə yaşayırdılar. Ancaq nə plan cızırsan cız, hansı xəyalı qurursan qur, zalım fələyin ağlagəlməz işlərindən baş açıb, bir tərəfə qaça bilməzsən. Buna qəzavü-qədər, qaçılmaz alın yazısı da deyirlər.

22 iyul 1973-cü ildə Cəbrayıl şəhərində dünyaya göz açan Qürbət Səmərqənd oğlu Qəhrəmanov elə rayonda da orta məktəbə getdi. Orta təhsilini bitirdikdən sonra Füzuli rayonuna gedib 3 aylıq sürücülük kursunda oxudu. 1991-ci ildə hərbi xidmət yaşı çatdıqda əsgərliyə yollandı. Əvvəlcə Cəbrayıl rayon özünümüdafiə batalyonunun tərkibində xidmətə başladı. Bu, həmin dövr idi ki, SSRİ imperiyası çökmüş, ayrı-ayrı müttəfiq respublikalar isə öz müstəqillik yollarına qədəm qoymuşdular. Azərbaycanımız da öz müstəqilliyini 20-ci əsrdə 2-ci dəfə əldə etmişdi. 1918-1920-ci illərdə dövlət müstəqilliyini elan edib yaşatmış ölkəmiz sovet buxovlarından azad olub, 2-ci dəfə müstəqilliyə qovuşmuşdu.

Fəqət bu müstəqilliyimizə mane olmaq istəyən düşmən qüvvələr də həmişə olmuşdur. Ulu öndər Heydər Əliyevin dediyi sözlər bu məqamda yada düşür: ”Müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətindir”.

Doğrudan da, əldə etdiyimiz Dövlət müstəqilliyimizi qoruyub yaşatmaq ölkəmizin və xalqımızın qarşısında duran ən əsas, vacib məsələ idi. Bunun üçün ilk növbədə xalqın, ordunun və dövlətin mütəşəkkil birliyi və qətiyyətli iradəsi vacib amillərdəndir. Düşmənə qarşı qətiyyət göstərmək üçün isə düşmən qarşısında canlarını sipər edəcək vətən oğulları gərəkdir!..

Vətənin bu dar günlərində bir çox qeyrətli oğullarımız kimi, evin-eşiyin son beşiyi olan Qürbət Səmərqənd oğlu Qəhrəmanov da evin oğlu olduğu kimi, elin oğlu olmaq missiyasını da öz üzərinə götürdü. Topçu kimi, mina axtaran, kəşfiyyatçı kimi Cəbrayılda, daha sonra isə könüllü şəkildə Füzulidə döyüşdü. Torpaqlarımıza diş qıcayan mənfur ermənilərin dərsini vermək üçün döyüşlərdə iştirak etdi. Açıq döyüşlərdə döyüşməyə iqtidarı çatmayan mənfur düşmənlərimiz öz alçaq təbiətlərinə uyğun olaraq hiyləgərlik etdilər, bir çox əsgərlərimizlə bərabər Qürbəti də mina tələsinə saldılar. 1992-ci ilin 23 oktyabrında Füzulidə şəhidliyə qovuşan Qürbətin nəşini 4 gün sonra - oktyabrın 27-də gətirib dədə-baba yurdu olan Yuxarı Sirik kəndindəki qəbiristanlıqda dəfn etdilər. Evin sonbeşiyi elin sonbeşik övladı kimi öz elində-obasında şəhid kimi öz ruhu ilə yurda keşik çəkməyə başladı.

Şəhidin bacısı Arifə xanım onun haqqında ağlaya-ağlaya ürəyini boşaltdı, dedi ki, il mərasiminə kimi Qürbətə başdaşı götürtmək niyyətimiz vardı. Lakin 1993-cü ilin avqustunda qaçqınlıq düşdü. Bakıdan sifariş verib düzəldilən başdaşını rayona aparmaq mümkün olmadı. Belə olandan sonra atam anama vəsiyyət elədi ki,



mən öləndə, mənim başdaşımı götürməyin, oğlumun başdaşını qoyarsınız mənim yanımda. 2008-ci ildə atam dünyasını dəyişdi, onun başdaşı ilə yanaşı qardaşımın da baş daşını qoyduq.

Şəhid bacısı onu da bildirdi ki, qardaşım oğlunun adını Qürbət qoyub. O uşaq əsgərlikdə olanda 2016-cıilin Şanlı Aprel döyüşlərində iştirak edib. Sanki əmisinin döyüş yolunu davam etdirib.

Arifə xanım kövrələ-kövrələ dedi ki, mənim qızım Vüsalə 1992-ci il oktyabrın 17-də anadan olmuşdu. Bir həftə keçər-keçməz qardaşımın şəhid xəbərini eşitdim. Necə deyərlər, analıq duyğusunun şirinliyini yaşadığım bu anlarda qardaş itkisinin ağrı-acısını yaşadım. Ona görə də bu ağrı-acı bir stress kimi həmişə mənimlə yaşayır və psixoloji olaraq bu ağrını indi olmuş kimi həmişə göz yaşları ilə yada salıram.

Arifə xanımın bu sözləri mənə bir vaxtlar Sofulu kəndindən olan ağbirçək Firəngiz nənəmizin (Balakişi qızı Novruzovanın) söyləmiş olduğu bir bayatını xatırlatdı.

**Aşıq, yaramı gedər,**
**Xalın yaramı gedər,**
**Gözdən yaş getməyinən**
**Ürəkdən yaramı gedər?!**

Yox, bu, elə bir ağır yaradır ki, illər gəlib keçsə də, göz yaşlarını üzündən silsən də, ürəkdən bu ağrı-acı getməz. Ürəkdən axıdılan göz yaşı əbədi bir ağrı-acıdır.

Arifə xanım onu da göynəyə-göynəyə danışdı ki, son dəfə bizim evə gəlmişdi, bizdə gecə qonaq qaldıqdan az sonra onun şəhid olması da bir yandan məni yandırıb-yaxır, acı bir xatirə kimi məni göynədir.

Şəhid bacısı onu da dedi ki, 2021-ci ildə mən, anam, yoldaşım və qızımın yoldaşı gedib Sirik kənd qəbiristanlığında qardaşımın məzarını ziyarət etməklə az da olsa təsəlli tapdıq. Başdaşı əvəzinə hələlik qəbrin üstünə bayrağımızın fonunda plakat kimi Qürbətin şəklini vurduq. İndi də gözləyirik ki, torpaqlarımıza qayıdış başlansın, qardaşımın başdaşını da aparaq və ürəyimiz istəyəndə də məzarını ziyarət edə biləк...

Bəli, bu gün bir evin sonbeşiyi olan Qürbət Səmərqənd oğlu Qəhrəmanovun şəhid məzarı Sirik kənd qəbiristanlığında uğrunda can qoyduğu doğma yurdun keşiyini çəkir və doğmalarının yolunu intizarla gözləyir.

**Ş.ALBALIYEV**



**Ənvər Şıxlar Mehdizadə**

## XATİRƏLƏR

Biz gedərik, dünya qalır,
Həm dolur, həm də boşalır.
Keçən ömrü yada salır
Şirin, şəkər xatirələr.

Meylim uyar bu əhvala,
Sən düşərsən haldan hala,
Qəlbin üstə qara xala
Kədər bükər xatirələr...

Canını oda qalayar,
Varlığını hey talayar!
Vaxtı əlinə dolayar,
Geri çəkər xatirələr.

Axşam da səninlə yatar,
Xəyalı başını qatar.
Gözlərini yuxu tutar,
Keşik çəkər xatirələr.

Sevsə yaddaşın harasın,
Məskən eləyər orasın.
Göz var, axıdar qarasın,
Üzə tökər xatirələr...

Hərdən bəddir, hərdən xoşdur,
Hərdən yaz, yay, hərdən qışdır...
Bax belə naxış-naxışdır,
Şəklin çəkər xatirələr.

Ənvər, dəysə də şəstinə,
Dolubdur sənin qəsdinə.
Hər gün ürəyin üstünə
Min dərd əkər xatirələr.

## ÖZÜMƏ QAYTAR

Gəlişin qəlbimin ritmini pozdu,
Qaytar, ilk tərzini özümə qaytar.
Buna nə mən dözdüm, nə ürək dözdü,
O tabı, dözümü özümə qaytar.

Bəli, diqqət çəkmək kamına yetdin,
Bir anda yüz baxış içində itdin.
Gözümü gözündə götürüb getdin,
Sən Allah, gözümü özümə qaytar.

O andan sən oldun dünyada dərdim,
Arxanca baxışı elçi göndərdim.
Ən gözəl sözümü gözümlə dedim,
Tutmasan, sözümü özümə qaytar.

Gözəlliyin mənə dərddir, bəladır,
Xəyalımı əndamına doladı.
Görkəmin cismimi oda qaladı,
Barı, od, közümü özümə qaytar.

Üzdə xoş təbəssüm böyrümdən ötdün,
Ənvər pıçıldadı: murada yetdim!
Təkcə yox, məni də apardın getdin,
Amandır, özümü özümə qaytar.

## SORUŞ

Öyrənmək istəsən Cənnətin yerin,
Heç kəsdən soruşma,anadan soruş.
Dərk etməsən təmiz eşqin dəyərin,
Onu bax bu ada yanandan soruş.

Bilmirsənsə həqiqət nə, güman nə?
Yağış nədir, bulud nədir, duman nə?
Yaxşı nədir, babat nədir, yaman nə?
Dünyanın gərdişin qanandan soruş.

Dərd, kədərlə dolu şələdir dünya,
Canlının ömrünə tələdir dünya,
Belə yaranmışdır,belədir dünya,
Onu nə vaxt, nə də zamandan soruş.

Ağıl, kamal hər kəs üçün sərvətdir,
El içində mənliyinə hörmətdir.
Ömür payın Haqdan gələn qismətdir,
Bunu nə bədəndən, nə candan soruş.

Ənvər Şıxlar, ədəb-ərkan saxla sən,
Haqqı, ədalətidaim haqla sən.
Hər kəsi öz əməliylə yoxla sən,
Heç kimi nə bundan, nə ordan soruş.

## YAZIQDIR

Al yaşıl bəzənib kama çatmayan
Bahar da yazıqdır,yaz da yazıqdı.
Gül-çiçəyin qucağında yatmayan,
Dərə də yazıqdır,düz də yazıqdır.

Şirin avaz axıb qəlbə dolmursa,
Hər pərdəsi yaddaşlarda qalmırsa,
Sevinc, fərəh səni səndən almırsa,
Naşı barmaq çalan saz da yazıqdır.

Gəlişi bəzəyər ilk məhhəbəti,
Budur ilk  sevginin sirli niyyəti.
İstəyinə düz gəlməsə qisməti,
Qədri bilinməyən naz da yazıqdır.

Dərd-qəmi yığışıb başından aşan,
Qocalığın kəməndinə dolaşan,
Təki qoşa görüb nəzəri çaşan
Baxış da yazıqdır, göz də yazıqdır.

Xəlvəti diqqətlə oğlan arayan,
Gözəlliyi fəxri ada yarayan,
Evdə ismətiylə qoşa qarıyan
Sevgiyə tamarzı qız da yazıqdır.

Ənvər Şıxlar, müntəzir tut özünü,
Yazanda yaz hər kəlmənin düzünü.
Çatdıra bilməsən fikrin məğzini,
Yerinə düşməyən söz də yazıqdır.

## NƏ XEYRİ VAR Kİ?

Yarıdar deyilsə tale qismətin,
Bunu danışmağın nə xeyri var ki?
Pozmaq qəbahətsə elin adətin,
Kükrəyib   coşmağın nə xeyri var ki?

Kimsəyə bildirmə dərdin çoxdusa,
Bəd gündə hayına çatan yoxdusa.
Söz-söbətə səni qatan yoxdusa,
Ona qarışmağın nə xeyi var ki?

Bilmədiyin işi eldən xəbər al,
Elə soruş, qınamasın el, mahal.
Nitqinin gözəllik qayğısına qal,
Saxta yaraşığın nə xeyri var ki?

Yaramazı qına, haqlını haqla,
Xoş əlaqən olsun yaxın, uzaqla
Hamıyla, hamıyla ünsiyyət saxla,
Küsüb barışmağın nə xeyri var ki?

Ənvər, eşidənlər valeh olmursa,
Bədiilik onu ondan almırsa,
Tək bircə bənd  yaddaşında qalmırsa,
Yüz şeir qoşmağın nə xeyri var ki?

# ŞƏHİDLƏR ÖLMÜRLƏR




Şəhidlərin ölməzliyi həm də onların həmişəyaşarlığı anlamına gəlir. Şəhidləri ölməz - yaşarı edən əlamətlər isə çoxdur. Müxtəlif mənа səviyyələrində şəhidlərin ölümsüzlüyü özünü təzahür etdirir. Adları tarixin səhifəsinə silinməz və al qanları rəngində olan qızılı hərflərlə yazılan igidlərimiz zamanbazaman anılmaqla yaşayıblar. Adları məktəblərə, müəyyən ictimai əhəmiyyətli obyektlərə və s. verilməklə, vaxtaşırı olaraq xatirələri işığında anım tədbirləri keçirilməklə, haqqında radio, televiziya, mətbuatda işıqlandırılmaqla və başqa forma və şəkillərdə əbədilik qazanıb yaşayır şəhidlərimiz.

Bəli, şəhidlərimiz hər dəfə müxtəlif forma və biçimlərdə anılmaqla sanki təzədən doğulur, ruhu ilə təmasda olub onları yaşatmış oluruq. Şəhidlərimizin bu cür yenidən doğulması və yaşamasına dair əyani örnəklərin biri də onların adlarının əzizləri və doğmaları tərəfindən yeni dünyaya gələn körpə uşağa verilməsi ilə yaşadılmasıdır. Bəli, şəhidlərimizin yaşarılığının bir təzahürü də onların adlarını daşıyan adaşlarının şəxsində yenidən doğulub, var olub yaşamalarıdır.



Belə şəhidlərimizdən biri də 2020-ci ilin noyabrında Şuşanın alınması uğrunda döyüşlərdə qəhrəmancasına şəhadətə ucalmış Bayramlı Tural Ədil oğludur. Əslən Cəbrayıl rayonunun Daş Veysəlli kəndindən olan Turalın yeganə qardaşı olan Amin qardaşının xatirəsini əbədiləşdirmək məqsədilə dünyaya gəlmiş ilk övladına onun adını qoydular. Canını vətənimizin uğrunda fəda etmiş Turalın nakam ömrünün davamı indi qardaşının övladının şəxsində davam edib yaşayır. Bu, ailə üçün böyük təsəlli və həm də qürurverici bir duyğudur. Allah Turalın torpağı sanı balaca Turalımıza ömür versin. Əmisinin yarımçıq qalmış ömrünü cansağlığı ilə, yarımçıq qalmış dünya boyda arzularını isə nənə-babasının və ata-anasının gözüdolusu sevinclə, ruh yüksəkliyi ilə, mətanətlə yerinə yetirsin. Doğmalarına, yaxınlarına, dostlarına başucalığı gətirən bir ömür yaşasın, düşmənlərimizə isə göz dağı verən bir oğul olsun balaca Turalımız - Tural Amin oğlu Bayramlı. Onun simasında şəhid əmisi ruhən də yaşayır, cismən də. Allah salamat eləsin.

Tanrı taleyini xoşbəxt yazsın!

**Şakir ALBALISOYLU**

# “Dirili Qurbani Məclisi” toplusu işıq üzü görüb




Güney Azərbaycanda cənublu soydaşımız yazar-jurnalist Səhra xanım Zəncanlı Rzayinin tərtibçiliyi və təqdimatı sayəsində ”Dirili Qurbani məclisi” adlı almanax işıq üzü görüb. Topluda ”Dirili Qurbani”nin adını daşıyan ədəbi məclis üzvlərinin yaradıcılığından nümunələr işıq üzü görüb. Qeyd edim ki, ustad Aşıq Qurbaninin də şeirlərindən nümunələrin yer aldığı bu kitabda məclisin sədri Yusif Dirilinin, məclisin təşkilat rəhbəri Malik Əhmədoğlunun, Əlirza Xələflinin,Tariyel Abbaslının, Sabir Şirvanın, Mehman Hüseynovun, Fərzalı Abbasəli oğlunun və başqalarının yaradıcılığından örnəklər fars qrafikasına uyğunlaşdırılmış ərəb əlifbası ilə nəşr olunub. Bu da cənublu qardaşlarımızın kitabda əksini tapmış ”Dirili Qurbani” ədəbi məclisi” üzvlərinin haqqında verilən məlumatlar və əsərləri ilə tanışlığına imkan yaradır.

**Şakir ƏLİFOĞLU**

# Cəbrayıl rayon İcra Hakimiyyətinin mətbu orqanı olan "Xudafərin" qəzetinin baş redaktoru cənab Şakir Albalıyevə

**Hörmətli Şakir müəllim!**

16 fevral 2023-cü il tarixdə Cəlilabad şəhərində Cəlilabad RPŞ-də Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı vətəndaşların qəbulu keçiriləcəkdir.

Bununla əlaqədar qəbulun keçiriləcəyi vaxtdan bir həftə əvvəl buraxılacaq qəzetinizin növbəti nömrəsində qəbulla bağlı elanın verilməsini xahiş edirik.

Göstərilənlərlə bağlı qəbulda iştirak etmək istəyən vətəndaşlar soyadı, adı, atasının adı, ünvanı, telefon nömrəsi, şikayətlərinin qısa məzmunu göstərilməklə 15.02.2023-cü il tarixədək Cəbrayıl rayon Polis Şöbəsinə rəsmi müraciət etməlidirlər.

**Hörmətlə,**
**polis polkovniki rəis Toğrul Mahmudov**

# Mediasiya və üstünlükləri

Mediasiya haqqında qanun 2019-cu ilin 29 martında qəbul edilib. 3 aprel 2019-cu ildə Prezidentin fərmanı ilə qüvvəyə minib. 2021-ci il iyul ayının 1-də 3 sahə-ailə, əmək və kommersiya münasibətlərindən irəli gələn mübahisələr Məhkəməyə müraciət etmədən əvvəl mediasiya haqqında Azərbaycan Respublikası Qanununun 28-ci və 29-cu maddələrinə uyğun olaraq ilkin mediasiya sesiyasında iştirak etməsi tələb olunur. Burada məqsəd tərəflər arasında münaqişə səviyyəsinin azaldılması və onları razı salacaq şəkildə mübahisənin həllini təmin etməkdir.

Mediasiya aşağıdakı prinsiplərə əsasən fəaliyyət göstəriri.

1. Könüllük prinsipi - yəni ilkin mediasiyada iştirak etmək tələbidir. Ancaq burada qərarı mediator yox, tərəflər verməlidir. Mediator isə qərəzsiz, müstəqil fiziki şəxsdir. Mediasiyanın ən böyük üstünlüklərindən biri odur ki, tərəflər aralarında yaranmış mübahisənin həllini 3-cü şəxsin qərarı ilə yox, öz qərarlarına uyğun həll edirlər.

2-ci prinsip tərəflərin hüquq bərabərliyi və əməkdaşlığıdır. Burada isə tərəflər mediasiya zamanı bütün məsələlərdə,o cümlədən mediatorun seçilməsində bərabər hüquqlardan istifadə edirlər və bərabər vəzifələr daşıyırlar. Eyni zamanda onlar məqsədləri naminə əməkdaşlıq etməli və qarşılıqlı şəkildə fəaliyyət göstərməlidirlər. Mübahisənin həlli onların əməkdaşlığına, ünsiyyətinə və danışıqlarına əsaslanır.

3-cü prinsip mediatorun qərəzsizliyi, müstəqilliyi və mediasiya prosesinə müdaxilənin yol verilməzliyidir, yəni mediator müstəqil və qərəzsiz olmalıdır. O əsasən qınayıcı sualdan qaçmalıdır. Əğər tərəflərdən biri ilə və yaxud mübahisənin predmeti ilə marağı və ya əlaqəsi olarsa, bu əlaqə onun müstəqilliyinə və ya qərəzsizliyinə təsir göstərsə, mediasiya prosesindən imtina etməlidir. Mediator mediasiya prosesi həyata keçirilən zaman tərəflərdən, dövlət və yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən asılı olmamalıdır və adı çəkilən orqanların və şəxslərin mediatorun fəaliyyətinə müdaxiləsinə yol verilmir.

4-cü prinsip isə kontidensallıqdı (məxfilikdi), yəni tərəflər arasında ayrı şərt müəyyən edilməyibsə, həmçinin barışıq sazişinin təsdiqi və icrası məqsədilə tələb olunan hallar istisna olmaqla mediasiya zamanı əldə olunan bütün məlumatların kontideniıalığı mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər tərəfindən qorunur. Ümumiyyətlə, kontidensallıqla bağlı qaydaların pozulması qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

5-ci prinsip isə tərəflərin hüquq və vəzifələridir. Tərəflər mediasiya təşkilatını və ya mediatoru seçmək və onlarda imtina etmək, mediasiya prosesində şəxsən və ya etibarnamə əsasında təmsilci vasitəsi ilə iştirak etmək və mediasiya prosesi və onun nəticələri barədə məlumat almaq hüququ vardır. Tərəflərin barışıq sazişinin icrasını təmin etmək, mediasiya kontidensallığını qorumaq vəzifələri vardır. Mediasiyanın üstünlükləri haqqında danışdıqda onu qeyd etmək lazımdır ki, Mediasiya həm tərəflər, həm ədliyyə sistemi və bütövlükdə cəmiyyət üçün çox faydalıdır. Belə ki, tərəflər üçün aşağıdakı faydaları var.

1. Riskin azaldılması.
2. Zaman baxımından faydalı.
3. Xərc baxımından faydalı.
4. Nəticələr üzərində daha yaxşı nəzarət və s.

Ən başlıcası isə mübahisənin həll edilməsində qərarı tərəflərin özlərinin verməsidir. Ədliyyə sistemi və bütövlükdə cəmiyyət üçün faydalıdır.

1. Daha effektiv ədalət.
2. Məhkəmələrin iş yükünün azaldılması.
3. Ədalət mühakiməsinin həyata keçirilməsi, mübahisələrin həll edilməsi üçün dövlət, özəl fondların vəsaitlərinin daha səmərəli istifadəsi.
4. Yeni peşəkar İmkanlar.

Ümumiyyətlə, Mediasiya bizim cəmiyyət üçün yeni sahədir və bir vətəndaş olaraq bu sahənin cəmiyyət üçün, dövlət üçün daha səmərəli sahə olmasına inanıram.

**Cəbrayıl 1 saylı Mediasiya Təşkilatının direktoru:**
**T.O.Balakişiyev**

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti Milli Qəhrəman Şikar Aslanovun anası Hüseynova Yüzayə Oruc qızının**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti Şəhid Yusif Feyzullayevin anası Qurbanova Həmayil Niftalı qızının**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti**

**Həsənov Faiq Hüsü oğlu, Məmmədov Əhrar Hümbət oğlu, Alışov Cəlil Xəlil oğlu, Qabilli Samidə Habil qızı, Hacıyev Misirxan Mübarək oğlu, Səfiyev Zəməddin Nəsrəddin oğlu, Mirimov Osman Lətif oğlu, Dünyamalıyev Fətiş Qardaşxan oğlu və Şıxıyeva Gülzar Mahmud qızının**

vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**CİF 1209641**
**H/h:55233080000**
**kod: 200123**
**VÖEN: 9900003611**
**SWIFT kod: AIIBAZ2X**
**M/h: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ27IIB410100C9443130139112**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
“Azərbaycan” nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet “Xudafərin” qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 452**
**Tiraj: 2000**